RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 235 (8828) ŞƏNBƏ 30 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Bölgəyə ədalət və inkişaf gətirən birlik

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli dövlətçilik tariximizdəki bir çox mühüm nailiyyətlərin müəllifidir. Bunların hamısı ölkəmiz üçün çox böyük önəm daşıyır.**

Bir nailiyyət isə Azərbaycan hüdudlarını da aşaraq ümumilikdə türk dünyasının birliyinə, parlaq gələcəyinə, yeni əsrin türk əsri olması qayəsinə xidmət edir. Ölkə rəhbəri İlham Əliyev müasir tariximizdə Türkiyə ilə münasibətləri ən yüksək səviyyəyə qədər inkişaf etdirə bilmiş, bu münasibətləri hər cür diplomatik protokollar çərçivəsindən çıxararaq ortaq keçmişimizin başladığı əsrlərdən gələn əsl qardaşlığa, qan bağına çevirməyi bacarmış liderdir.

Müstəqillik dövründə Azərbaycanla Türkiyə arasındakı münasibətlər hər zaman çox gözəl, yüksək səviyyədə olub. Türkiyə apardığımız haqq işinə daim dəstək verib. Qardaş köməyini göstərməyə çalışıb. İqtisadi-ticari əlaqələrimizdə öndə durub. Bununla belə, iki qardaş ölkə arasındakı münasibətlər heç vaxt bu qədər sarsılmaz, güclü, mətin olmayıb. Ulu Öndər Heydər Əliyevin bir zamanlar bəyan etdiyi "Bir millət, iki dövlət" kəlamı artıq tarixi reallıqdır. Bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın, inanıb güvənən iki ölkə yoxdur və belə ölkələri təsəvvür etmək də mümkün deyil.

### İki dövlət - iki lider

Azərbaycan-Türkiyə birliyi hazırda bütün dünyada dostluğun, qardaşlığın və müttəfiqliyin rəmzinə çevrilib. Bu, təkcə dil və etnik baxımdan yaxınlığa əsaslanan münasibətlər deyil. Dünyada ölkələr var ki, eyni dildə danışıb, eyni etnik köklərə sahib olub, amma bir-birilə illərdir ağır münaqişələr aparırlar. Belə bir fonda Azərbaycan-Türkiyə birliyi nümunəvi xarakter daşıyır. Qan yaddaşımızda minillik dəyərlər kimi möhkəmlənmiş və ali keyfiyyətlər üzərində qurulmuş bu münasibətlər hər cür diplomatiyanın fövqündədir. Öz maraqları üçün min cür oyunlar oynayan, hər cür addımlar atan, mənəviyyatsızlıqlara qol qoyan xarici siyasi dairələrin qarşısına Azərbaycan və Türkiyə prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara yelərini göstərirlər.

Azərbaycan-Türkiyə münasibətlərinin indiki tarixi mərhələsinə gəlib yetişməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı sayğısı, inamı, etibarı, lider kimi mərdanə xüsusiyyətləri, regionun və dünyanın gələcəyinə ümumi baxışları, tarixin sınaqlarından çıxmış qardaşlıq güvəni çox mühüm rol oynayır. Bu iki güclü şəxsiyyət arasındakı sarsılmaz dostluq və onları birləşdirən liderlik fenomeni Azərbaycan-Türkiyə münasibətlərinin uğur formuludur. Onlar milli maraqları hər şeydən üstün tutduqlarını və qətiyyətlə qoruduqlarını sözlə deyil, əməli fəaliyyətləri ilə nümayiş etdirirlər. Bu gün öz liderlərinin sayəsində Türkiyə də, Azərbaycan da çox böyük tarixi uğurlar əldə edib. Bütün dünyada prinsipial, cəsarətli, düşünülmüş siyasət yürüdən ölkələr kimi tanınıb qəbul edilməkdədirlər.

Hazırda Azərbaycan və Türkiyənin birgə uğurları, ümumən, türk dünyasının nailiyyətləridir. Bu birlik, Prezident İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın liderlik xüsusiyyətləri, sarsılmaz qətiyyəti, türk dünyasının maraqlarının qorunması missiyasını şərəflə yerinə yetirmələri Türk Şurasının qlobal əhəmiyyətini getdikcə gücləndirir. Azərbaycanın Türk Şurasına sədrliyi dövrü çox məhsuldar keçdi. Ölkəmizin irəli sürdüyü dəyərli təşəbbüslərlə qurum bir çox məqsədlərinə nail oldu. Türk Şurasının növbəti Zirvə toplantısında sədrliyin Azərbaycandan Türkiyəyə keçməsi bu missiyanın eyni uğurla davam etdirilməsi deməkdir. Həyata keçirilən müstəqil və qətiyyətli siyasət nəticəsində Türkiyə indi mühüm qlobal güc amilinə çevrilir. Türkiyə Prezidentinin BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinə xitabən səsləndirdiyi "Dünya 5-dən böyükdür" fikri tarixi reallıqdır. Öz milli maraqlarının qayğısını çəkən hər bir toplum bu həqiqət ətrafında bir araya gəlməlidir. Azərbaycan və Türkiyə həm də bunun bir örnəyini yaradır.

Ardı 3-cü səh.

## Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb

**Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb. Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Əli Əsədov "Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə" Qərarı imzalayıb.**

Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 1 yanvar 2022-ci il saat 06:00-dək uzadılıb.

## Qubadlının yenidən qurulmasında infrastruktur layihələri ön sıradadır

**Bəzən müəyyən hadisələri, xüsusi əhəmiyyət kəsb edən tarixləri zamanın aynasına düzərək müxtəlif vaxt bucaqlarından nəzərdən keçirmək faydalı olur. Beləliklə, hadisələrin ardıcıllığını və mahiyyətini dərk etməyə fürsət yaranır.**

Bu baxımdan Prezident İlham Əliyevin son bir ayda işğaldan azad edilmiş rayonlara ardıcıl səfərlərinin arxasında duran bütün məqamları və incəlikləri dərk etmək üçün bir il geriyə, 44 günlük qanlı müharibənin getdiyi günlərə qayıtmaq yerinə düşür.

Ardı 4-cü səh.

## "Bütün tarixi-dini abidələrin ermənilər tərəfindən məhv edildiyinin şahidi oldum"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Türkiyə Respublikasının milli bayramı - Respublika Günü münasibətilə təbriklərini çatdırdı, türk xalqına xoşbəxtlik və rifah arzuladı.

Söhbət zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə bu yaxınlardakı səfəri məmnunluqla xatırlandı, bu səfərin Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin növbəti nümunəsi olduğu və əlaqələrimizi daha da möhkəmləndirdiyi vurğulandı.

Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşın işğaldan azad olunmuş torpaqlarımıza səfər etməsinin önəminə toxunularaq, onun işğal dövründə bütün tarixi-dini abidələrin ermənilər tərəfindən məhv edildiyinin şahidi olduğu qeyd edildi.

Görüşdə ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı.

## "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin bəzi müəssisələrinin və balansında olan obyektlərin özəlləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlətin idarəetməsində olan müəssisələrin inkişaf etdirilməsi, onların fəaliyyətinin səmərəliliyinin artırılması və özəl investisiyalar hesabına canlandırılması məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) aşağıdakı müəssisələri və balansında olan obyektlər (bundan sonra - müəssisə və obyektlər) özəlləşdirilməyə açıq elan edilsin:

1.1. bu Sərəncamın əlavəsində göstərilən hüquqi şəxslər;

1.2. siyahısı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Cəmiyyətlə razılaşdırılmaqla müəyyən edilən əmlak kompleksləri və qeyri-yaşayış binaları (torpaq sahələri ilə birlikdə), qeyri-yaşayış sahələri.

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsi ilə özəlləşdirilməyə açıq elan edilmiş müəssisə və obyektlərin:

2.1. özəlləşdirilməsi üsulları barədə qərarları, onların xüsusiyyətləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın (bundan sonra - Dövlət Proqramı) 4.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi qəbul edir;

2.2. özəlləşdirilməsində yerli investorlarla yanaşı, xarici investorların da iştirakına icazə verilir.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. müəssisə və obyektlərin özəlləşdirilməsini Dövlət Proqramına uyğun olaraq həyata keçirsin;

3.2. özəlləşdirmə prosesində müəssisə və obyektlərin investorlar üçün cəlbediciliyinin artırılması məqsədilə məsləhətçi və qiymətləndirici şirkətlər cəlb etməklə onların restrukturizasiyasını (birləşdirilməsi, bölünməsi və digər səmərəli formada yenidən təşkili) təmin etsin, habelə borclarının restrukturizasiyasına və ya silinməsinə (dondurulmasına) dair təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Cəmiyyət:

4.1. müəssisə və obyektlər özəlləşdirilənədək onların idarə olunmasını və əmlakının qorunub saxlanılmasını təmin etsin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 29 oktyabr 2021-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 oktyabr tarixli Sərəncamına əlavə*

### "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin özəlləşdirilməyə açıq elan edilən müəssisələrinin siyahısı

1. "ASK Şüşə" Məhdud Məsuliyyətli Cəmiyyəti;
2. "ASK Ayaqqabı Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti;
3. "Azəripək" Məhdud Məsuliyyətli Cəmiyyəti;
4. "ASK Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyəti;
5. "ASK İzolit" Məhdud Məsuliyyətli Cəmiyyəti;
6. "ASK Şəki SES" Məhdud Məsuliyyətli Cəmiyyəti;
7. "ASK Şəki Şərab" Məhdud Məsuliyyətli Cəmiyyəti.

◆ Zəfərin izi ilə

## Şuşanın Bülbül nişanı



### Heydər Əliyevin yaratdığı ev-muzeyə İlham Əliyev Zəfəri ilə yeni həyat bəxş etdi

*Yuxarı Gövhər ağa məscidindən Şuşanın "Çuxurməhlə" səmtinə doğru düşürük. Yenə də hər tərəfdə erməni vandallığının və vəhşiliyinin izi görünür…*

*Qulaqbatırıcı sükutun içərisində uzaqdan musiqi səsi gəlir. Yaxınlaşdıqca avaz daha aydın eşidilir:*

*Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,*
*Hər nəfəs çəkdim, hədər getdi o saat sənsiz…*
*Oxuyan Bülbül idi…*

*Uçuq hasarı dönən kimi qarşımıza xarabalıqların arasında bərq vuran bir mülk çıxır. Ünvanı yanılmamışdıq…*

### Murtuzanı Bülbülə "çevirən" 150 yaşlı tut ağacı…

Şuşaya səfərimiz zamanı Bülbülün ev-muzeyinə getmək planımızda yox idi, ona görə də bu məhəlləyə xəbərsiz gəlmişdik.

Dahi sənətkarın uşaqlıq və yeniyetməlik illərinin keçdiyi bu məhəllədə, həm də onun adını daşıyan küçədə Şirinbəylilər, Kavalerlər və digər şuşalı ailələrə məxsus evlər də erməni vəhşiliyinin qurbanıdır. Hələlik bu küçənin və bütün məhəllənin bərpa olunan yeganə ünvanı Azərbaycan peşəkar vokal sənətinin banisi, lirik-dramatik tenor səsə malik opera müğənnisi, görkəmli xanəndə, Azərbaycan və SSRİ Xalq artisti, professor və ictimai xadim Bülbülün dünyaya göz açdığı evdir...

Ardı 5-ci səh.

◆ Müəllifi İlham Əliyevdir



## Zəfərin «ASAN» tərənnümü

### Şəki Regional "ASAN xidmət" Mərkəzində vətəndaşlara operativ xidmətlə yanaşı, şanlı Qələbəmizi əks etdirən layihələr də reallaşdırılır

**Azərbaycanın dilbər güşələrindən olan Şəki şəhərindəyik. Özünəməxsus təbiəti, flora və faunası, füsunkar gözəlliyi, tarixi abidələri, qonaqpərvərliyi ilə gələnləri valeh edən Şəki yeni inkişaf mərhələsini yaşayır.**

Səfərimizin məqsədi isə 3 il öncə burada fəaliyyətə başlayan "ASAN Həyat" kompleksi ilə tanışlıq və burada vətəndaşlara şəffaf, operativ xidmət göstərən "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə maraqlanmaqdır.

Ardı 6-cı səh.

# Milli Məclisin Sədri Sahibə Qafarova türkiyəli həmkarına təbrik məktubu göndərib



Oktyabrın 28-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa Cümhuriyyət Bayramı münasibətilə təbrik məktubu ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Sahibə Qafarova Mustafa Şentopu və onun simasında Türkiyə Böyük Millət Məclisinin üzvlərini, həmçinin qardaş Türk xalqını milli bayram - Türk Cümhuriyyətinin qurulmasının 98-ci ildönümü münasibətilə öz adından və Azərbaycan Respublikası Milli Məclisinin bütün üzvləri adından təbrik edib, daimi rifah, tərəqqi, sülh və əmin-amanlıq arzulayıb.

Milli Məclisin Sədri tarixin sınağından çıxmış Azərbaycan-Türkiyə qardaşlığının bundan sonra da davamlı olaraq möhkəmlənəcəyinə və regionda təhlükəsizliyin, sülhün, sabitliyin təminatçısı olacağına əminliyini ifadə edib.

# Türkiyə Respublikasının yaranmasının 98-ci ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib

**Türkiyə Respublikasının yaranmasının 98-ci ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib.**







AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Milli Məclis Sədrinin müavinləri və deputatları, dövlət və hökumət rəsmiləri, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri, xarici ölkələrin Azərbaycandakı səfirləri, ictimaiyyətin nümayəndələri rəsmi qəbulda iştirak ediblər.

Türkiyənin ölkəmizdəki səfirliyi tərəfindən təşkil olunan tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən səfir Cahit Bağcı bildirib ki, Türkiyə Cümhuriyyəti yaradılmasından ötən 98 ildə həm daxili, həm də xarici düşmənlərin hücumlarına, təhdidlərinə məruz qalıb, onlara qarşı böyük müqavimət göstərərək bütün çətinlikləri geridə qoyub. Getdikcə daha da güclənən Türkiyə təhdidlərə qarşı hər cür yolları, strategiyaları inkişaf etdirərək bu günlərə gəlib çıxıb, regional gücə və qlobal aktora çevrilib.

Səfir qeyd edib ki, Türkiyə qardaş Azərbaycanla "Bir millət, iki dövlət" fəlsəfəsinə və Şuşa Bəyannaməsinin hədəflərinə uyğun şəkildə münasibətlərinin daha da dərinləşdirilməsi, genişləndirilməsi üçün böyük səylə çalışır.

Sonra Cahit Bağcı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin yaranmasının 98-ci ildönümü münasibətilə xalqa müraciətini oxuyub.

Müraciətdə Türkiyə xalqını bayram münasibətilə təbrik edən Prezident Rəcəb Tayyib Ərdoğan Cümhuriyyətin banisi Mustafa Kamal Atatürk ilə qəhrəman silahdaşlarını hörmətlə andığını, canları bahasına bu vətəni onlara əmanət edən şəhidlərə Allahdan rəhmət dilədiyini bildirib.

Türkiyə Prezidenti müraciətində Azərbaycanın öz torpaqlarının 30 illik erməni işğalına son qoyduğunu vurğulayıb. Həmçinin qeyd edib ki, Türkiyə bu mübarizədə hər zaman azərbaycanlı qardaşlarının yanında olub, onları dəstəkləyib.

Prezident Rəcəb Tayyib Ərdoğanın müraciətində həmçinin deyilir: "Qədim tariximizdən və dəyərlərimizdən aldığımız güclə 84 milyonla birlikdə Türkiyəni böyütmək və hədəflərinə çatmaq üçün səylərimizi davam etdiririk. Çətin epidemiya şəraitinə baxmayaraq, iqtisadiyyatda, daxili və xarici siyasətdə əldə etdiyimiz uğurlar ölkəmizin güclü infrastrukturu ilə yanaşı, prezident idarəetmə sisteminin səmərəliliyini göstərən mühüm göstəricidir. Bir millət olaraq birliyimizi, həmrəyliyimizi, qardaşlığımızı möhkəmləndirərək, böyük və güclü Türkiyə uğrunda mübarizə aparacağıq".

Rəsmi qəbulda çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasının yaradılmasının 98-ci ildönümü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin səmimi təbriklərini və ən xoş arzularını çatdırıb.

"Türkiyə Cümhuriyyətinin 98 il əvvəl böyük Mustafa Kamal Atatürkün rəhbərliyi ilə başlanan rifah və quruculuq yolu türk xalqının nələrə qadir olduğunu dünyaya göstərib. Xüsusilə son illərdə Türkiyə Cümhuriyyəti türk dünyasının böyük siyasi və dövlət xadimi Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə möhtəşəm inkişaf yolu keçib. Cəmiyyət və dövlət həyatının bütün sahələrində heyrət doğuran uğurlar qazanılıb. Bu gün siyasi, iqtisadi, hərbi gücünə görə Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən biridir. Qardaş ölkənin bu yüksəlişi bizi ürəkdən sevindirir, çünki Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür. Azərbaycanla Türkiyə arasında ortaq dəyərlərə əsaslanan səmimi münasibətlər beynəlxalq aləmdə nadir hadisədir. Xalqlarımızın və dövlətlərimizin dostluğu və qardaşlığı bizim ən böyük sərvətimizdir. Ölkələrimiz arasında münasibətlər Ulu Öndər Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" prinsipi üzərində qurulub. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır", - deyə Milli Məclisin Sədri bildirib.

Sahibə Qafarova qeyd edib ki, Vətən müharibəsinin ilk dəqiqələrindən sonunadək Prezident Rəcəb Tayyib Ərdoğanın verdiyi mənəvi və siyasi dəstək, bütün Türkiyənin, türk xalqının tutduğu qəti mövqe Azərbaycanın haqq işi uğrunda mübarizədə tək olmadığını hər kəsə göstərdi. Türkiyə və onun lideri hər yerdə və hər zaman Azərbaycanın yanındadır. İkinci Qarabağ müharibəsində Azərbaycanın Qələbəsi Cənubi Qafqaz bölgəsində yeni reallıq yaradıb. Bu gün Azərbaycan və Türkiyənin birgə səyləri ilə bölgənin geosiyasi mənzərəsini dəyişən, ona yeni çalarlar gətirən layihələr planlı şəkildə və əzmlə həyata keçirilir.

"Qürurla söyləmək olar ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin iyununda Şuşanı ziyarət etmələri, iki dövlətin müttəfiqlik əlaqələri haqqında Şuşa Bəyannaməsinin imzalanması, bu günlərdə isə dövlət başçılarının Füzuli Beynəlxalq Hava Limanını açmaları, Zəngilanda Azərbaycanla Türkiyəni bir-birinə daha sıx bağlayacaq Zəngəzur dəhlizinin təməlini qoymaları, digər böyük layihələrin icrasına xeyir-dua vermələri xalqlarımızın dostluq və qardaşlığının yeni bir nümayişi oldu", - deyə Milli Məclisin Sədri vurğulayıb.

Tədbir ziyafətlə davam edib.

## Milli Məclisin iclasında

# Azərbaycanda "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur

Oktyabrın 29-da Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.

**Sahibə QAFAROVA:**

**"Bəzi beynəlxalq təşkilatların təmsilçiləri tərəfindən "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinin hələ də işlədilməsi yolverilməzdir"**





İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə parlamentin nümayəndə heyətinin oktyabrın 20-dən 22-dək Yunanıstanın paytaxtı Afina şəhərinə işgüzar səfəri barədə qısa məlumat verib. Bildirib ki, səfərdə məqsəd parlament sədrlərinin Avropa konfransında iştirak etmək idi.

Milli Məclisin Sədri qeyd edib ki, parlament sədrlərinin ilk Avropa konfransı 1975-ci ildə baş tutub. O vaxtdan bəri bu tədbir ənənəvi olaraq 2 ildən bir ya Strasburqda, ya da Avropa ölkələrindən birinin paytaxtında keçirilir. Budəfəki konfransda Avropa Şurasının üzvü olan 47 ölkənin parlament sədrləri, habelə müşahidəçi dövlətlərin 400 nəfərədək təmsilçisi iştirak edirdilər. 2 gün davam edən toplantıda müxtəlif mövzular ətrafında səmərəli müzakirələr aparılıb, Milli Məclisin Sədri iki mövzu üzrə çıxış edib.

Oktyabrın 21-də konfransın açılış mərasimində "Demokratiya COVID-19 pandemiyasının səhiyyədə yaratdığı böhranla üz-üzə: təcrübə mübadiləsi, növbəti addımlar" mövzusunda aparılan müzakirələrdə iştirak edən Sahibə Qafarova çıxışında bu qlobal bəlaya qarşı ölkəmizdə həyata keçirilən tədbirlər haqqında məlumat verib. Pandemiyanın bir çox ölkələrdə ciddi çətinliklərə səbəb olacağı, inkişaf meyillərinə mənfi təsir göstərəcəyi ilə bağlı narahatlığını ifadə edib. Həmçinin ölkəmizin pandemiyaya qarşı qlobal mübarizəyə və beynəlxalq təşəbbüslərə dəstəyi haqqında da danışıb. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təklifi ilə ötən ilin dekabrında Nyu Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirildiyini, bütün ölkələrin peyvəndlərə bərabər çıxışının təmin edilməsi üçün yenə də Qoşulmama Hərəkatı adından Azərbaycanın irəli sürdüyü qətnamə layihəsinin BMT-nin İnsan Hüquqları Şurasında bu ilin mart ayında yekdilliklə qəbul edildiyini də xatırladıb.

Sədr bildirib ki, Azərbaycan dünyanın pandemiyadan daha tez və daha az itkilərlə çıxması məqsədi ilə qlobal tədbirlərə dair tövsiyələr verə biləcək BMT-nin Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını məqsədəuyğun hesab edir.

Sahibə Qafarova diqqətə çatdırıb ki, oktyabrın 22-də konfransda "Bütün Avropa vətəndaşlarının ümumi gələcəyi" mövzusunda keçirilən müzakirələrdə onun növbəti çıxışı olub. Çıxışında belə bir fikrini ifadə edib ki, müasir dövrün çağırışları demokratik idarəçilik problemlərinin ötən dövrdə təşəkkül tapmış paradiqma çərçivəsində həllinin mümkün olmadığını göstərir.

Sədr çıxışında qeyd edib ki, demokratik dəyərlər sistemi üçün təhdidlər doğuran təhlükəsizlik problemlərinin, xüsusən dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə qəsdlərin, etnik separatizmin, davakar millətçiliyin qarşısının alınması üçün vahid yanaşma formalaşdırılması zəruridir.

Sədr Ermənistanla Azərbaycan arasında mövcud olmuş və artıq keçmişdə qalmış münaqişənin həlli ilə bağlı danışıqların uğursuzluqla nəticələnməsini ortaq həll yolunun tapılmaması ilə əlaqələndirib. Bildirib ki, uzun illər münaqişənin sülh yolu ilə nizama salınması üçün göstərilən beynəlxalq səylərin nəticə verməməsinin bir səbəbi də Ermənistanın beynəlxalq hüquq normalarına və prinsiplərinə məhəl qoymaması, danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutması idisə, digər səbəbi isə təcavüzkar dövlətin öz adı ilə çağırılmaması, bir sıra hallarda işğalçı dövlətlə işğala məruz qalan dövlətin bir tutulması, beynəlxalq birliyin tələblərinə məhəl qoymayan, beynəlxalq qaydalara meydan oxuyan Ermənistan dövlətinə münasibətdə lazımi qətiyyət göstərilməməsi olub. Əgər münaqişənin həllində ikili standartlara yol verilməsəydi, Azərbaycan işğal edilmiş torpaqlarının azad edilməsi barədə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini, digər beynəlxalq təşkilatların sənədlərini öz gücü ilə icra etməyə məcbur olmazdı.

Sahibə Qafarova xatırladıb ki, ötən il sentyabrın 27-də Ermənistanın daha bir təxribatından sonra Azərbaycan BMT-nin Nizamnaməsi ilə nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə edərək təcavüzkarı dayandırmaq və Azərbaycan torpaqlarının işğalına son qoymaq üçün əks-hücum əməliyyatlarına başladı. Xalqımızın 44 günlük Vətən müharibəsi nəticəsində biz beynəlxalq ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Bununla da Cənubi Qafqaz bölgəsində yeni geosiyasi reallıq yarandı.

Ermənistan yeni reallıqla barışaraq onu qəbul etməli, 2020-ci ilin noyabrında və 2021-ci ilin yanvarında imzalanmış və bölgənin sülh və təhlükəsizlik məkanına çevrilməsinin parametrlərini özündə ehtiva edən üçtərəfli bəyanatları tam yerinə yetirməlidir.

Milli Məclisin Sədri qeyd edib ki, konfransın davam etdiyi günlərdə bir sıra ikitərəfli görüşlər də keçirilib. Bütün görüşlərdə sədr, 44 günlük Vətən müharibəsində Azərbaycanın 30 ildən bəri Ermənistanın işğal altında saxladığı torpaqlarını azad edərək, ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb. Qeyd edib ki, bununla da ölkəmiz BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini özü yerinə yetirib. Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistan baş nazirinin imzaladığı üçtərəfli Bəyanatla münaqişəyə son qoyulub və Dağlıq Qarabağ münaqişəsi artıq keçmişdə qalıb.

Görüşlərdə Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan üçtərəfli Bəyanatda əksini tapan bütün öhdəliklərini yerinə yetirir, lakin Ermənistan tərəfindən törədilən təxribatlar regionda davamlı sülhün təmin olunmasına maneçilik törədir. 10 noyabr Bəyanatından bir ilə yaxın vaxt ötməsinə baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməyib. Təqdim olunan bəzi xəritələrin dəqiqliyi isə yalnız 25 faizdir. Görüşlər zamanı Sahibə Qafarova xüsusilə vurğulayıb ki, Ermənistan tərəfindən basdırılan minaların partlaması nəticəsində bu günədək 150 mülki vətəndaş və hərbçimiz həlak olub və ya ağır yaralanıb. Nəzərə çatdırıb ki, bu ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı Fərmanla Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsü müəyyənləşdirilib, iki yeni rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Azərbaycan ərazisində "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur və bəzi beynəlxalq təşkilatların təmsilçiləri tərəfindən "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinin hələ də işlədilməsi yolverilməzdir. Artıq Azərbaycan işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlayıb. Həyata keçirilən quruculuq işləri bölgənin inkişafına, sülh və təhlükəsizliyin təmin edilməsinə əlverişli şərait yaradacaq.

Milli Məclisin Sədri səfərin uğurlu keçdiyini bildirib və bununla əlaqədar nümayəndə heyətimizin hər bir üzvünə minnətdarlığını bildirib.

Sonra plenar iclasın 12 məsələdən ibarət gündəliyi təsdiq olunub və cari məsələlərin müzakirəsinə başlanıb.

Cari məsələlərin müzakirəsində komitə sədri Zahid Oruc, deputatlardan Məlahət İbrahimqızı, Razi Nurullayev, Fazil Mustafa, Əli Məsimli, Elman Nəsirov, Elşən Musayev, Tural Gəncəliyev, Ramin Məmmədov, Müşfiq Cəfərov çıxış ediblər.

Deputatlar Türkiyə Cümhuriyyətinin qurulmasının 98-ci ildönümü münasibətilə Milli Məclisin Sədri Sahibə Qafarovanın TBMM Sədri Mustafa Şentopa təbrik məktubunu alqışlayaraq Türkiyə dövlətini və xalqını təbrik ediblər, Azərbaycan-Türkiyə qardaşlığının bundan sonra da davamlı olaraq möhkəmlənəcəyinə və regionda təhlükəsizliyin, sülhün, sabitliyin təminatçısı olacağına əminliklərini ifadə ediblər. Deputatlar Milli Məclis Sədrinin başçılığı ilə parlament nümayəndə heyətinin Parlament sədrlərinin Avropa konfransında iştirakının əhəmiyyətindən danışıblar, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bu kimi səfərlərin önəmli rol oynadığını bildiriblər.

Sonra Milli Məclis gündəlikdəki məsələlərin müzakirəsinə başlayıb.

İlk olaraq müzakirəyə çıxarılan "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı haqqında" Sazişin qüvvədəolma müddətinin uzadılmasına dair Protokol"un təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məlumat verib. Bildirilib ki, sənədə əsasən, 2015-ci il mayın 25-də imzalanmış sazişin qüvvədəolma müddəti tərəflərin saziş üzrə öhdəliklərin yerinə yetirilməsinin davam etdirilməsi və başa çatdırılması məqsədilə bu ilin sonunadək uzadılacaq.

Sənədin müzakirəsində Qüdrət Həsənquliyevin və Səməd Seyidovun fikirləri dinlənilib. Qanun layihəsi səsvermədən sonra tək oxunuşla qəbul edilib.

Sonra müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsi barədə məlumat verən parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanla Vatikan arasındakı münasibətlərə diqqət çəkib.

Qanun layihəsi ilə bağlı Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli söz alıb. Bildirib ki, dini sahədə dünya siyasətinə böyük təsiri olan bir dövlətlə - Vatikanla diplomatik münasibətlərin səfirlər müstəvisində qurulması birmənalı şəkildə Azərbaycan dövlətinin və xalqının mənafeyinə xidmət edir. Bu qanun layihəsini də deputatlar tək oxunuşla qəbul ediblər.

Sonra Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb. Sənəd haqqında Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, irəli sürülən dəyişiklikdə 2021-ci il 15 oktyabr tarixli "Müstəqillik günü haqqında" qanuna uyğun olaraq Əmək Məcəlləsində də mayın 28-nin Müstəqillik Günü, oktyabrın 18-nin Müstəqilliyin Bərpası Günü kimi qeyd edilməsi nəzərdə tutulub. Layihə səsə qoyularaq qəbul edilib.

Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. Komitə sədri bildirib ki, dəyişiklikdə "daxili emal" xüsusi gömrük proseduru altında malların idxalı zamanı sahibkarlardan tələb olunan maliyyə təminatının məcburi olmaması təklif edilib. Birinci və ikinci oxunuşlarda heç bir təklif olmadığı üçün mətn olduğu kimi saxlanılıb.

Sənədlə bağlı Milli Məclis Sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli və Tahir Kərimlinin fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəliyin 5-ci məsələsi - "Valyuta tənzimi haqqında", "Kredit ittifaqları haqqında", "Banklar haqqında", "Poçt haqqında", "Mühasibat uçotu haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Kredit büroları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə məlumat verib. O bildirib ki, layihə "Mühasibat uçotu haqqında" qanuna uyğunlaşma xarakteri daşıyır, sənədin əvvəlki oxunuşlarında heç bir irad və təklif bildirilməyib. Layihə səsə qoyularaq təsdiq olunub.

Üçüncü oxunuşda müzakirəyə çıxarılan "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə haqqında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. Qeyd edib ki, dəyişikliyə əsasən icbari tibbi sığortanın xidmətlər zərfinə daxil olmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan təsdiq edəcək. O, layihənin ikinci oxunuşunda deputatların səhiyyə sahəsi ilə bağlı qaldırdığı məsələlərə də aydınlıq gətirib.

Müzakirələr zamanı komitə sədrləri Musa Quliyev, Qənirə Paşayeva, deputat Qüdrət Həsənquliyev layihə ilə bağlı çıxış edib suallarını səsləndiriblər, fikirlərini bildiriblər. Əhliman Əmiraslanov qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra layihə səsə qoyularaq qəbul edilib.

Mülki Məcəllədə, "Müflisləşmə və iflas haqqında", "İcra haqqında", "Banklar haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunun layihəsini (üçüncü oxunuş) də parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib. Sənədlə bağlı ikinci oxunuşdan sonra komitəyə heç bir təklifin daxil olmadığını deyən komitə sədri layihənin səsə qoyulmasını təklif edib. Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Parlamentin Sədri bildirib ki, bununla da üçüncü oxunuşda olan qanun layihələrinin qəbulu başa çatıb, növbəti 4 məsələ ikinci oxunuşda olan qanun layihələridir.

"Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) təqdimatı üçün söz yenə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişiliyə verilib.

O bildirib ki, dəyişiklik torpaq islahatı dövründə pay torpağı almış ailələrin torpaqla bağlı sənədlərinin qaydaya salınması zamanı tələb olunan rüsumun dövlət büdcəsi hesabına ödənilməsini nəzərdə tutur. Komitə sədri qanun layihəsinin birinci oxunuşunda deputatlar tərəfindən qaldırılan məsələlərin qanunun predmetinə aid olmasa da, araşdırıldığını və lazımi məlumatların təqdim edildiyini deyib.

Layihə ilə bağlı Milli Məclisin Hesablayıcı komissiyasının sədri Eldar Quliyev çıxış edib, aqrar sahə ilə bağlı fikirlərini ifadə edib. Sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərovun təqdimatından sonra İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) də səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İkinci oxunuşda müzakirəyə çıxarılan "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Peşə təhsili haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri isə bir-biri ilə bağlı olduğu üçün bir yerdə təqdim olunub.

Layihələr barədə məlumat verən parlamentin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev hər iki sənədin birinci oxunuşda geniş müzakirələrində deputatların qaldırdığı məsələlərlə bağlı arayış verib, komitədə ikinci oxunuşda müzakirədə təklif olunan layihələrdəki mətnlərin eyni olması ilə bağlı redaktə xarakterli texniki düzəlişin mahiyyətcə heç nəyi dəyişdirmədiyini bildirib. Komitə sədri Siyavuş Novruzovun, deputat Vüqar Bayramovun çıxışları dinlənildikdən sonra hər iki qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda təsdiqlənib.

Gündəliyin sonuncu məsələsi olan "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin təqdimatından sonra deputatlar tərəfindən səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

*Rəşad BAXŞƏLİYEV,*
*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Bölgəyə ədalət və inkişaf gətirən birlik

*Əvvəli 1-ci səh.*

## Dostluğun, qardaşlığın rəmzi

44 günlük Vətən savaşında hər an Azərbaycanın yanında olan, haqq işimizə əngəl törətmək istəyənlərin, ölkəmizə təzyiq göstərməyə çalışanların önünü kəsən, varlığı ilə çox gözləri qorxudan Türkiyə Zəfərdən sonra da Azərbaycanla birgədir. İşğaldan azad edilmiş torpaqlarımızda aparılan quruculuq proseslərində ölkəmizin yanındadır. Azərbaycan və Türkiyənin əsrlərin o üzündən gələn doğmalıq ruhu ilə birləşərək daha da güclü olmuş qardaş əlləri bu gün Qarabağdan, Şərqi Zəngəzurdan dünyaya yeni inkişaf qapıları açır. Bölgəyə sülh, əmin-amanlıq, ümid, insanlara rifah gətirir. Xoşbəxtlik arzusunda olan hər kəsi silahı yerə qoyub, kin-küdurəti unudub, quruculuq mühitində öz yerini tutmağa, dünyaya fayda verməyə dəvət edir.

Türkiyə Prezidentinin oktyabrın 26-da Azərbaycana səfəri, cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Şərqi Zəngəzur bölgəsində keçirilən tədbirlər də bu baxımdan tarixi çalarlarla yadda qaldı. Xatırladaq ki, bu, Türkiyənin dövlət başçısının işğaldan azad edilmiş Azərbaycan ərazilərinə ikinci rəsmi səfəridir. Dörd ay bundan əvvəl qardaş ölkənin cümhuriyyət başqanı Rəcəb Tayyib Ərdoğan Şuşa şəhərində də olub. Azərbaycan və Türkiyə prezidentləri tarixi Şuşa Bəyannaməsinə imza atıblar. Bu bəyannamə iki ölkə arasındakı əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qaldırıb.

Füzuli və Zəngilana səfər də öz tarixi əhəmiyyəti ilə Azərbaycan və Türkiyənin sarsılmaz birliyinin əyani təzahürü oldu. İki dövlət arasında əməkdaşlığın, qardaşlığın regional və dünya miqyasında önəmli amilə çevrildiyini bir daha nümayiş etdirdi.

## Bakıdan İstanbula uzanan yollar

İlk dəfə idi ki, Füzuli Beynəlxalq Hava Limanına xarici dövlət rəhbərinin təyyarəsi enirdi. Fəxri qaravul dəstəsi düzülmüşdü. Qısa zamanda müasir səviyyədə belə bir hava limanının tikilməsi, Türkiyə Prezidentinin təyyarəsinin bura enməsi işğaldan azad olunmuş ərazilərdə strateji əhəmiyyətə malik kommunikasiya infrastrukturunun formalaşdırılması istiqamətində əldə olunan uğurların göstəricisidir.

Füzulidə artıq hava limanı istifadəyə verilib. Zəngilan və Laçında isə yeni hava limanlarının tikintisi istiqamətində güclü işlər aparılır. Onların hər biri təbii ki, regionun inkişafında müstəsna rol oynayacaq. Azərbaycanın bu bölgədə həm sosial-iqtisadi, həm də hərbi gücünə xidmət göstərəcək. Qarabağın, Şərqi Zəngəzurun isə mötəbər, adlı-sanlı, fəxri qonaqları çox olacaq, hava limanlarına onların təyyarələri tez-tez enəcək. Bu statusda ilk qonağın məhz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın olmasının isə özünəməxsus tarixi-mənəvi mənası var.

Bu səfər proqramı çərçivəsində dövlət rəhbərləri Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoydular. Son onilliklər boyu Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan regionun iqtisadi-siyasi mənzərəsini dəyişən bir neçə qlobal enerji-kommunikasiya layihələrinə həyat qazandırıblar. Təməli qoyulan yeni yol da bunların ən mühümlərindəndir. Bu yol Azərbaycanla Naxçıvan arasındakı birbaşa əlaqəni bərpa edəcək, eyni zamanda, Bakını avtomobil və dəmir yolu vasitəsilə İstanbulla qovuşduracaq. Beləliklə, tarixi əhəmiyyətli yol Bakıdan İstanbula avtomobil və dəmir yolu dəhlizini təmin edəcək. Zəngəzur dəhlizi regionda kommunikasiyaların, iqtisadi əlaqələrin möhkəmlənməsində mühüm əhəmiyyət daşıyacaq. Ən əsası isə bütün iştirakçı ölkələrin Zəngəzur dəhlizindən yararlanmaq imkanları olacaq.

## Bu rəsmi mərasim tarixdə qalacaq

Təkbətək görüşdən sonra Azərbaycan və Türkiyə prezidentlərinin verdikləri rəsmi bəyanatda bir çox mühüm məqamlar özünə yer aldı. Dövlət başçımız İlham Əliyev qeyd etdi ki, Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirak, eləcə də Zəngilan rayonunda birinci özəl sərmayə layihəsinin təməlinin qoyulması



bir daha birliyimizin, gücümüzün təzahürüdür: "Yəni bu bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də biz çiyin-çiyinə bir yerdə irəliləyirik. Bu gün Zəngilanın Ağalı kəndindəki bu rəsmi mərasim tarixdə qalacaq. Adətən rəsmi mərasimlər paytaxtlarda keçirilir. Ancaq biz rəsmi mərasimləri bütün görüşlər zamanı keçiririk. Həm Şuşada, həm də bu gün Zəngilanda rəsmi mərasimlərin keçirilməsi, Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səslənməsi, bizim birgə addımlarımız tarixdə əbədi qalacaq. Bu tarixi biz birlikdə yazırıq. Necə ki, bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik".

İndi regional işlərdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amil kimi dəyərləndirilir. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə artıq dünya çapında böyük gücə çevrildiyini, heç kimin Türkiyəyə öz iradəsini diktə edə bilmədiyini vurğuladı: "Bu yaxınlarda Əziz qardaşım Türkiyənin daxili məsələlərinə müdaxilə etmək istəyənlərə elə cavab vermişdi ki, hesab edirəm bu, bütün siyasətçilər üçün örnəkdir. Öz milli ləyaqətini qoruyan, öz xalqının, dövlətinin maraqlarını, qürurunu qoruyan və müdafiə edən Lider bu gün buradadır, Azərbaycandadır, Zəngilandadır, Ağalıdadır. Biz bunu qiymətləndirməliyik. Bütün türk dünyası üçün Rəcəb Tayyib Ərdoğan amili ən önəmli amillərdən biridir".

Prezident İlham Əliyev gələn ay Azərbaycanın Türk Şurasında sədrliyi Türkiyəyə təhvil verəcəyini də xatırlatdı: "Əminəm ki, Türkiyə Əziz qardaşımın rəhbərliyi ilə Şuraya uğurlu sədrlik edəcək. Türk dövlətləri arasındakı əməkdaşlıq və qardaşlıq əlaqələri daha da güclənəcək, beləliklə, bütün Türk dünyası üçün yeni imkanlar açılacaq".

Heç kimə sirr deyil ki, türk xalqlarının yaşadığı çox geniş coğrafi məkanda ötən əsrin sonlarına qədər bu və ya digər formada, lakin ardıcıl olaraq türkdilli xalqların milli dövlətçilik maraqlarına zidd siyasət yürüdülüb. Bu xalqların nəinki ərazilərinə, milli, mədəni, intellektual sərvətlərinə də başqaları sahiblənib. Bütün maddi və mənəvi ehtiyatlar həmin siyasətin maraqlarına yönəlib. Uzun bir dövr ərzində hətta "türk" sözü belə yasaq edilib. Bu sözü dilə gətirən, qələmə alan ziyalılar, türk sözünün enerjisini daşıyan insanlar repressiyalara məruz qalıb, güllələnib, gedər-gəlməzə göndərilib, min bir məşəqqətlə üzləşib.

Lakin müstəqilləşmə ilə başlayan və suveren türk respublikalarının öz iradəsini ortaya qoymaq imkanlarını açan yeni geopolitik şərait bu siyasətin bütünlüklə "türk coğrafiyasından" geri çəkilməsini tələb edir.

Öz milli kimliyini, tarixi dövlətçiliyinin möhtəşəmliyini dərk etmiş, müstəqil respublika olaraq siyasi-iqtisadi hədəflərini müəyyənləşdirmiş türk xalqlarının artıq bundan sonra kiminsə qanadları altına düşməsi ağlasığmazdır. Üzərimizə yönələn təhdidləri dəf etməyin yeganə yolu isə türk dövlətlərinin sarsılmaz birliyini yaratmaqla güclənməkdir.

## Türk dünyasını birləşdirəcək yol

Azərbaycan Prezidenti Zəngilandan keçən Zəngəzur dəhlizinin bütün Türk dünyasını birləşdirəcəyini, həm Azərbaycanın, həm Türkiyənin Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atdığını bildirdi və əmin olduğunu vurğuladı ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir. "Bu gün Əziz qardaşımla və qonaqlarla birlikdə böyük avtomobil yolunun təməlini qoyduq. Bu avtomobil yolu da Zəngəzur dəhlizinin bir hissəsidir. Bu avtomobil yolunun və dəmir yolunun çəkilişi nəticəsində biz istədiyimizə nail olacağıq", - dedi Prezident İlham Əliyev.

Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğan isə öz bəyanatında bildirdi ki, Azərbaycan hazırda bütün dünyaya örnək olacaq inkişaf modeli ilə bu bölgənin firavan gələcəyi üçün fəaliyyətini davam etdirməkdədir. Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" olmağın verdiyi ortaq şüur və ruhla hərəkət edir. Türkiyə Prezidenti onu da xatırlatdı ki, Azərbaycan bölgənin əsl potensialının həyata keçirilməsinə mane olan işğalı şanlı Zəfəri ilə sona çatdırdı, BMT Təhlükəsizlik Şurasının illərdir tətbiq olunmayan qətnamələrini özü həyata keçirdi. Davamlı sülhün təmin olunması və arzu edilən normallaşma istiqamətində irəliləyişlər üçün şərait indi əvvəllər olmadığı qədər əlverişlidir. Bunun üçün isə bölgədəki yeni duruma uyğun hərəkət edilməlidir: "Biz bölgədə davamlı sülhün və əhatəli normallaşmanın tərəfdarıyıq. Bu coğrafiyadan keçəcək torpaq yollar və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq. Gün gələcək Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək. Bu inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla, Azərbaycanın bütün qonşuları istifadə edəcəklər. Bir sözlə, bu layihələr kənarlaşdırıcı deyil, əhatəedicidir. Bu prosesdə sərhədlərin müəyyənləşdirilməsi və qarşılıqlı olaraq tanınması zəruridir. Mehriban qonşuluq münasibətlərinin əsasını da bu anlayış təşkil etməkdədir".

Türkiyə Prezidenti xüsusi qeyd etdi ki, bu məsələlərdə Ermənistan Azərbaycan ilə problemlərini həll etmək istiqamətində səmimi bir iradə göstərməlidir. Əgər Azərbaycan ilə bağlı səmimi iradə ortaya qoyarsa, Türkiyənin Ermənistan ilə əlaqələrinin də normallaşması üçün bir maneə qalmayacaq. Bütün bölgə üçün birlikdə qurulacaq firavan gələcəyi kiçik hesablara və daxili siyasətə qurban vermək vaxt itkisi mənasına gələcək: "Dünyanın bu gözəl bölgəsində sülh içində yaşanacaq parlaq bir gələcək, əlbəttə ki, mümkündür. Türkiyənin də davamlı sülhün yaradılması istiqamətində atılacaq hər müsbət addımın qarşılığını eyni konstruktiv anlayışla verəcəyini bir daha xüsusi vurğulayıram".

## Quruculuq xalqımızın missiyasıdır

Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan tikinti-quruculuq tədbirlərində Türkiyə şirkətləri də yaxından iştirak edir. O cümlədən Əhmədbəyli-Füzulu-Şuşa yolunun bir hissəsini məhz Türkiyənin "Kolin İnşaat" və "Çingiz İnşaat" şirkətləri işləyir. Türkiyə şirkətlərinin işlədiyi hissədə 6 kilometr uzunluqda tunel tikilir. Hazırda Toğanalı-Kəlbəcər yolunda çəkilən və uzunluğuna görə Azərbaycanın ən böyük tuneli olacaq bu tikili də Türkiyə şirkəti "Çingiz İnşaat" tərəfindən inşa edilir. Səfər proqramı zamanı dövlət rəhbərlərinə məlumat verildi ki, hazırda Qarabağda iş aparan Türkiyə şirkətlərində 6587 nəfər işçi çalışır. Onların 1832 nəfəri Türkiyə vətəndaşı, 4500 nəfəri isə Azərbaycan vətəndaşıdır. Ümumilikdə Qarabağ zonasında işləyən şirkətlərdə 13280 nəfər çalışmaqdadır.

Cocuq Mərcanlıda açılacaq Suvenir İstehsalı Müəssisəsi də "Cocuq Mərcanlının İnkişafı" Fondu ilə yanaşı, "TÜİB" və "TİKA"nın maliyyə dəstəyi ilə ərsəyə gəlir. Burada Cocuq Mərcanlı kəndinin 25 sakini işlə təmin olunacaq. Müəssisədə hədiyyəlik saxsı qablar, kiçik ölçülü xalçalar, əl işləri və digər məhsullar istehsal ediləcək.

Türkiyə Prezidentinin səfəri zamanı Zəngilanda həyata keçiriləcək "Dost Aqropark" layihəsinin də təməli qoyuldu. Dövlət rəhbərləri "Dost Aqropark"ın fəaliyyətinə xeyir-dua verdilər. Türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçiriləcək bu layihə üç mərhələdə icra olunacaq. Layihənin birinci mərhələsində inzibati binalar, heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək.

Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkanlar genişlənəcək.

Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. "Dost Aqropark" kompleksində "ağıllı kənd" təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulacaq.

İşğaldan azad olunmuş ərazilərdə Türkiyə şirkətlərinin yaxından iştirakı ilə görülən işlər qardaş ölkənin bu torpaqların dirçəlişində də Azərbaycana köməyini əsirgəmədiyini göstərir. Bu ərazilərdə yol-nəqliyyat infrastrukturunun qurulması, enerji təminatı sisteminin formalaşdırılması, kənd təsərrüfatı, sənaye obyektlərinin tikintisi bölgənin inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan və Türkiyənin qurucu qardaş əllərinin cəmi bir neçə ay ərzində yaratdıqları 30 ildə bu torpaqlarda daşı-daş üstə qoymayan, gözə görünən nə varsa tar-mar edən, satıb-sovuran erməni vandallarına da, onların beynəlxalq aləmdəki havadarlarına da ən tutarlı cavabdır.

Ermənistanın dağıdıcılıq siyasəti fonunda Azərbaycanın quruculuq missiyası bu gün tarixin üfüqlərindən daha aydın görünür. Ölkəmiz düşmən dövlətin dağıdıb tökdüklərini daha müasir, daha gözəl tərzdə yenidən qurur. İşğalçıların viran qoyduqları, xarabazara çevirdikləri torpaqlara Azərbaycan həyat gətirir. Bölgəyə bəxş etdiyi sülhlə, inkişaf və tərəqqi mühiti ilə doğma yurd yerlərimizi onilliklər sonra yenidən dinamik inkişaf məkanına çevirir. Düşmənlərin regiona fəlakət gətirən dağıdıcılıq siyasəti, vaxtilə işğal altında olan Azərbaycan ərazilərində yaratdığı faciəvi durum indi hər bir xarici ölkə ictimaiyyətinin düşünməsi üçün ən aydın mənzərədir.

Hər kəsin yerinə yetirdiyi missiya artıq bütün dünyaya əyandır. Dağıdıcılıqla heç zaman uzaq məqsədlərə gedib çıxmaq olmaz. Necə ki Ermənistan 30 ildə apardığı dağıdıcılıq fəaliyyəti ilə heç nəyə nail ola bilmədi. Sonda müzəffər ordumuzun gücü qarşısında geri çəkilməkdən başqa əlacı qalmadı. Tarixin bütün dönəmlərində keçmiş də, bu gün də, gələcək də quruculların olub. Çünki torpağın əsl sahibləri onu dirçəldənlərdir. Onun köksündə mədəniyyət nişanələri qurub yaradanlardır. Bu yurdların əzəli-əbədi sahibi olan Azərbaycan bu gün də öz tarixi missiyasına sadiqdir. İndi də qurub yaradır və Qarabağın, Şərqi Zəngəzurun, ümumən, Cənubi Qafqazın tarixində yeni səhifə açır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# ZƏFƏR gündəliyi

## 30 oktyabr 2020-ci il

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 29-u gün ərzində və 30-una keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutur.

Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edir. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınır.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd Su-25 təyyarəsi, 3 ədəd T-72 tankı, 1 PDM, 2 ədəd "Smerç" və 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 10 ədəd müxtəlif tipli topu, 2 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 1 ədəd "Osa" ZRK, 1 ədəd P-18 radiolokasiya stansiyası, 4 ədəd avtomobil texnikası məhv edilir və sıradan çıxarılır.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Saat 07:35-dən başlayaraq Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulur.

Ordumuz tərəfindən adekvat tədbirlər görülür.

❖ ❖ ❖

Bərdə şəhərində dinc əhalini və mülki infrastrukturu atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus "Smerç" yaylım atəşli reaktiv sisteminin atəş mövqeyi bölmələrimiz tərəfindən aşkar edilir.



Bölmələrimizin dəqiq atəşi ilə düşmənin "Smerç" yaylım atəşli reaktiv sistemi məhv edilir.

Müdafiə Nazirliyi qeyd olunan reaktiv sistemin məhv edildiyi anın videogörüntüsünü yayır.

❖ ❖ ❖

Ermənistan mətbuatı guya Azərbaycan Ordusuna məxsus döyüş sursatı anbarının məhv edilməsi ilə bağlı növbəti yalan məlumat yayır. Lakin düşmən həmin anbarın yaxın məsafədən çəkilmiş videogörüntüsünü məlumata əlavə etməklə öz saxtakarlığını bir daha ifşa edir.



Həqiqətdə isə oktyabrın 29-da gecə saatlarında Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazimizdəki yeni inşa edilmiş raket-artilleriya silahları anbarı bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖



İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vecnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

3:00 PM · Oct 30, 2020 · Twitter for iPhone

Prezident İlham Əliyev özünün "Tviter" hesabında xalqa daha bir müjdəli xəbər verir. Paylaşımda deyilir:

"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Bərdə və Tərtər şəhərlərində dinc əhalini və mülki infrastrukturu atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus növbəti 2 ədəd "Smerç" yaylım atəşli reaktiv sistemlərinin tutduğu mövqelər bölmələrimiz tərəfindən aşkar edilir.

Saat 12:55 və saat 14:18 radələrində bölmələrimizin dəqiq atəşi ilə düşmənin 2 ədəd "Smerç" yaylım atəşli reaktiv sistemləri məhv edilir.

Müdafiə Nazirliyi reaktiv sistemlərin məhv edildiyi anın videogörüntülərini yayır.

❖ ❖ ❖



Ermənistanın yalan məlumatları bir daha ifşa edilir. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir ki, Xocalı rayonunun Qarabulaq kəndinin (keçmiş Əsgəran rayonunun Aknaxpyur kəndi) guya Azərbaycan Ordusu tərəfindən atəşə tutulması nəticəsində mülki əhalinin xəsarət alması barədə Ermənistan mətbuatının yaydığı məlumat yalandır.

Rəsmi olaraq bildirilir ki, Azərbaycan Ordusu mülki əhaliyə deyil, yalnız hərbi hədəflərə atəş açır.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri düşmənin qüvvə və döyüş vasitələrini dəqiq zərbələrlə darmadağın edir.

Saat 20:25 radələrində cəbhənin Ağdam istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd "Osa" ZRK bölmələrimiz tərəfindən məhv edilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# YAP ilə Çin Kommunist Partiyası arasında videoformatda görüş olub




**Oktyabrın 29-da Çin Kommunist Partiyasının təşəbbüsü ilə Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Çyan Xunşan arasında videoformatda görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Çyan Xunşan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovu salamlayaraq bu görüşün keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Tahir Budaqov Çyan Xunşanı Çin Kommunist Partiyasının yaradılmasının 100 illiyi münasibətilə bir daha təbrik edərək bildirib ki, Azərbaycan Respublikası Çin Xalq Respublikası ilə qarşılıqlı əlaqələrə böyük önəm verir, ölkələrimiz arasında bu gün siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz uğurla davam edir. Əlaqələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin dostluq münasibətlərinin əhəmiyyətini vurğulayan Tahir Budaqov ortaq iqtisadi maraqlar, hər iki ölkənin tarixi İpək yolunun bərpasındakı rolu və digər bu kimi amillərin əməkdaşlığın güclənməsinə zəmin yaratdığını qeyd edib. O, həmçinin Azərbaycanın Çin Xalq Respublikasının irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən ilk ölkələrdən biri olduğunu diqqətə çatdırıb.

"Zəngəzur dəhlizi isə Azərbaycanın tranzit ölkə kimi potensialını daha da gücləndirəcək. Bu dəhliz vasitəsilə Şərq-Qərb istiqamətində beynəlxalq yükdaşımaların əhəmiyyətli dərəcədə artması regionda Azərbaycan və Çinin də fəal iştirakçısı olduğu yeni çoxtərəfli əməkdaşlıq platformasının formalaşmasını təmin edəcək. Bütövlükdə hesab edirik ki, münasibətlərimizin daha da inkişafı üçün böyük potensial var. Xüsusilə iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün geniş imkanlar mövcuddur", - deyə Tahir Budaqov bildirib.

Görüşdə həmçinin Azərbaycanın inkişafında yeni mərhələnin başlandığı, ötən il 44 günlük müharibə nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü təmin etdiyi vurğulanıb. Çinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini qeyd edən YAP Sədrinin müavini deyib: "Qarşıda dayanan əsas vəzifələrimizdən biri Ermənistanın işğalından azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərinin həyata keçirilməsidir. Bu prosesdə dost ölkələrin, o cümlədən Çinin şirkətləri də iştirak edir, amma istərdik ki, onların sayı daha da çox olsun".

Tahir Budaqov vurğulayıb ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının münasibətləri də uğurla davam edir. Cari ilin iyul ayında Çin Kommunist Partiyasının təşkilatçılığı ilə Dünya Siyasi Partiyalarının "Xalqın xoşbəxtliyi naminə: siyasi partiyaların məsuliyyəti" mövzusunda videokonfrans formatında keçirilən sammitində Yeni Azərbaycan Partiyası da təmsil olunub. Partiyalar arasında münasibətlər öz növbəsində dövlətlərin əlaqələrinin daha da güclənməsinə müsbət təsir edir.

Görüşdə iştirak edən Azərbaycanın Çin Xalq Respublikasındakı səfiri Əkrəm Zeynallı, öz növbəsində, ölkələr arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirib, təməli qoyulan əlaqələrin inkişafında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının aparıcı rol oynadığını diqqətə çatdırıb.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Çyan Xunşan vurğulayıb ki, Çin Xalq Respublikası Sədrinin və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən əlaqələrimiz uğurla inkişaf edir. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətlə inkişaf etdiyini diqqətə çatdırıb və Çinin Azərbaycanın uğurlarına sevindiyini söyləyib. Bildirilib ki, Azərbaycan regionda Çinin əsas tərəfdaşlarından biridir. Çin Xalq Respublikası Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasında maraqlıdır.

Onun sözlərinə görə, hər iki ölkənin liderləri qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi üçün uğurlu siyasət həyata keçirirlər. Çyan Xunşan Çin Kommunist Partiyasının Yeni Azərbaycan Partiyası ilə əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib. Bu görüşün də məhz iki partiya arasında mövcud əlaqələrin və dostluq münasibətlərinin daha da gücləndirilməsi məqsədi daşıdığını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

# BMT QAK-ın nümayəndəsi: "Mina ilə çirklənmiş ərazilərdə Azərbaycanın həyata keçirdiyi bərpa işləri təqdirəlayiqdir"

**Oktyabrın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Avropa Regional Bürosunun direktor müavini Angela Li Rosinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə həmçinin Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov iştirak edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı 2021-ci il oktyabrın 24-29-da Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə A.Li Rosinin başçılığı ilə həyata keçirilən BMT QAK-ın missiyasının nəticələri müzakirə edilib.

A.Li Rosi Azərbaycan tərəfindən BMT QAK-a göstərilən dəstəyə və yüksəksəviyyəli əməkdaşlığa görə təşəkkürünü ifadə edib. O, səfərin məqsədinin məcburi köçkünlər və qaçqınların geri qayıdışının şərtlərinin və perspektivlərinin, habelə 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatda BMT QAK üçün nəzərdə tutulan rolun konkret aspektlərinin müzakirə edilməsi olduğunu bildirib. Missiyanın Ağdam, Tərtər, Bərdə, Füzuli, Cəbrayıl və Zəngilana səfər etdiyini, Azərbaycan qarşısında bu ərazilərin bərpası ilə əlaqədar duran vəzifənin miqyasını öz gözləri ilə gördüklərini bildirən A.Li Rosi dağıntılar və mina ilə çirklənmənin yüksək olmasına baxmayaraq, hökumət tərəfindən sürətlə həyata keçirilən bərpa işlərinin təqdirəlayiq olduğunu vurğulayıb.

Nazir Ceyhun Bayramov ölkəmizdə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış genişmiqyaslı məcburi köçürülmə problemi, əhalinin adambaşına düşən məcburi köçkün sayına görə dünyada ilk yerlərdən birini tutan Azərbaycanda məcburi köçkünlərin sosial problemlərinin həlli sahəsində görülmüş işlər barədə qonaqlara məlumat verib. Humanitar təşkilatların ölkəmizdəki fəaliyyətinə yaradılmış şəraitdən bəhs edən nazir Azərbaycanın BMT QAK-la əməkdaşlığa önəm verdiyini, bu təşkilat tərəfindən 1990-cı illərdə qaçqın və məcburi köçkünlərə göstərilən yardımın unudulmadığını vurğulayıb. İşğaldan azad edilmiş ərazilərdə mina təhlükəsi barədə qonaqları məlumatlandıran Ceyhun Bayramov ötən ilin noyabrından bəri Azərbaycanda 167 nəfərin mina qurbanına çevrildiyini, onların içində öz doğma torpaqlarını görmək üçün səbirsizlənən məcburi köçkünlərin olduğunu və mina xəritələrinin Ermənistan tərəfindən Azərbaycana təhvil verilməsinin məcburi köçkünlərin təhlükəsiz qayıdışı üçün önəmli olmasını vurğulayıb.

Görüşdə tərəflər eyni zamanda işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində Azərbaycan hökuməti tərəfindən atılan addımlar, avtomobil və dəmir yollarının, infrastrukturun sürətli bərpası, "ağıllı kənd" modeli əsasında yenidən qurulan kəndlər və Füzuli şəhərində qısa müddətdə beynəlxalq hava limanının inşa edilməsi ilə bağlı müzakirələr aparıb, məcburi köçkünlərin öz doğma torpaqlarına ləyaqətli və təhlükəsiz qayıdışı üçün əməkdaşlığın davam etdirilməsinə qarşılıqlı maraqlarını ifadə ediblər.

# "Yüksəliş" müsabiqəsinin qalibi ilə görüş

**"Yüksəliş" müsabiqəsinin qalibləri idarəçi rəhbərlər tərəfindən onlara təqdim olunan birillik fərdi inkişaf planının icrasına başlayıblar.**

AZƏRTAC xəbər verir ki, müsabiqənin idarəçi rəhbərlərindən olan ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Yüksəliş" müsabiqəsinin qalibi Vüqar Mirzəzadə ilə görüşüb. Müsabiqənin şərtlərinə əsasən, qalib bir il müddətində müsabiqənin idarəçi rəhbəri ilə mentorluq proqramı çərçivəsində əməkdaşlıq edərək təcrübə keçəcək.

Görüşdə "Yüksəliş" müsabiqəsinin qalibinə təcrübəsinin daha da artırılması istiqamətində yaxından kömək göstəriləcəyi bildirilib. Vüqar Mirzəzadə müsabiqənin ona verdiyi ən böyük üstünlüklərdən birinin məhz mentorluq proqramında iştirak etmək olduğunu vurğulayıb, həmçinin nazirin mentorluğu ilə təcrübə qazanmağın böyük nailiyyət olduğunu qeyd edib.

"Yüksəliş" müsabiqəsinin idarəçi rəhbərlər heyətinin tərkibinə iqtisadiyyat naziri Mikayıl Cabbarov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, energetika naziri Pərviz Şahbazov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, kənd təsərrüfatı naziri İnam Kərimov, maliyyə naziri Samir Şərifov, xarici işlər naziri Ceyhun Bayramov, gənclər və idman naziri Fərid Qayıbov, DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, mədəniyyət naziri Anar Kərimov, təhsil naziri Emin Əmrullayev, Ombudsman Səbinə Əliyeva, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Mərkəzi Bankın sədri Elman Rüstəmov, "Kapital Bank"ın İdarə Heyətinin sədri Rövşən Allahverdiyev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, BP şirkətinin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda xarici əlaqələr və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru Balakişi Qasımov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev daxildirlər.

"Yüksəliş" müsabiqəsi 21-51 yaş aralığında, ikiillik idarəçilik təcrübəsi olan, ali təhsilli Azərbaycan Respublikasının vətəndaşlarını əhatə edir. Müsabiqə 5 mərhələdən - qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və finaldan ibarətdir. Müsabiqədə ümumilikdə 11 min 760 nəfər qeydiyyatdan keçib. Onlardan 9 min 775 nəfəri müsabiqəyə qəbul edilib.

# Parlamentin komitə sədri MDB PA-nın Elm və təhsil üzrə daimi komissiyasının sədr müavini seçilib



**Oktyabrın 29-da MDB Parlament Assambleyasının (PA) iki daimi komissiyasının videokonfrans formatında iclasları keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, parlamentin deputatları Bəxtiyar Əliyev və Kamilə Əliyeva MDB PA-nın Elm və təhsil üzrə daimi komissiyasının iclasında iştirak ediblər. İclasda 17 məsələyə baxılıb. Əvvəlcə təşkilati məsələ həll olunub, Milli Məclisin komitə sədri Bəxtiyar Əliyev yenidən MDB PA-nın Elm və təhsil üzrə daimi komissiyasının sədr müavini seçilib.

Sonra gündəlikdəki növbəti məsələlər müzakirəyə çıxarılıb. Komissiya üzvləri "Əqli fəaliyyətin nəticələrinin kommersiyalaşdırılması haqqında", "Elmi və elmi-texniki fəaliyyət subyektlərinin dövlət attestasiyası (akkreditasiyası) haqqında" model qanun layihələrini, MDB-yə üzv dövlətlərin model İnformasiya Məcəlləsinin yeni redaksiyasının layihəsini, eləcə də "Elmi və elmi-texniki ekspertiza haqqında" model qanunda dəyişiklik olunmasına dair layihəni ətraflı müzakirə ediblər.

İclasda bir sıra tövsiyə layihələrinə də baxılıb. Elm və təhsil sahələrində model qanun yaradıcılığının perspektiv istiqamətlərinə, istedadlı uşaq və gənclərin aşkara çıxarılaraq dəstəklənməsi tədbirlərinə, təhsil sahəsində rəqəmsallaşmanın normativ tənzimlənməsinə, valideynlərlə maarifləndirici işin aparılmasına, MDB-yə üzv dövlətlərdə müasir əczaçılıq təhsili sisteminin formalaşdırılmasına, süni intellektdən istifadənin tənzimlənməsinə və digər məsələlərə dair tövsiyə layihələri ətrafında geniş fikir mübadiləsi aparılıb və müvafiq qərarlar qəbul edilib.

❖ ❖ ❖

Milli Məclisin deputatları Rauf Əliyev və Tamam Cəfərova MDB PA-nın Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının iclasında iştirak ediblər. İclasda 14 məsələyə baxılıb.

Əvvəlcə gündəlikdəki qanunvericilik məsələlərinə diqqət yönəldilib. "Kinematoqrafiyaya dövlət dəstəyi haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" model qanunların yeni redaksiyada təqdim olunmuş layihələri müzakirə edilib. MDB dövlətləri üçün model Əqli Mülkiyyət Məcəlləsinin yeni redaksiyada hazırlanması məsələsinə baxılıb. Deputatlar mədəniyyət və turizm sahələrində rəqəmsal inkişaf üzrə model qanun yaradıcılığının perspektiv istiqamətlərinin təhlili layihəsinin hazırlanması barədə fikirlərini bölüşüblər.

Sonra komissiyada MDB PA-nın və dövlətlərarası "Mir" teleradio şirkətinin "Dostluq ağacı" medalı ilə, həmçinin MDB PA-nın mədəniyyət və incəsənət, mətbuat və informasiya, bədən tərbiyəsi, idman və turizm sahələrinə dair Fəxri döş nişanları və qurumun Çingiz Aytmatov adına mükafatı ilə təltiflər üçün təqdimatlar hazırlanması məsələsi nəzərdən keçirilib.

İclasda Milli Məclisin deputatı, MDB PA-nın Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının sədr müavini Rauf Əliyev bir sıra fikirlərini bölüşüb.

Hər iki iclasın yekununda bu daimi komissiyaların 2022-ci ilə dair iş planları müzakirə olunub, növbəti iclasların vaxtı və ilkin gündəliyi müəyyənləşdirilib.

# Qubadlının yenidən qurulmasında infrastruktur layihələri ön sıradadır

*Əvvəli 1-ci səh.*

Ali Baş Komandan Qubadlıda rayon ictimaiyyəti ilə keçirdiyi görüşdə məhz hər bir yaşayış məntəqəsinin işğaldan azad edilməsinin tarixi hadisə olduğunu bildirdi. Şəhidlərimizi hörmətlə yad etdi. Azad edilmiş bütün şəhər və kəndlərimizdə bərpa işləri başa çatandan sonra onların adlarının məktəblərə və küçələrə veriləcəyini də nəzərə çatdırdı.

Onu da qeyd etmək vacibdir ki, Azərbaycan Prezidentinin işğaldan azad edilmiş rayonlara səfərləri yalnız qələbənin birinci ildönümünü qeyd etməklə bağlı deyil. Bu səfərlərdə işğaldan azad edilmiş hər bir rayonda qələbənin həmin gün qeyd edilməsinin özü qədər vacib olan başqa məqamları da mövcuddur.

Birincisi, bu görüşlər zamanı İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə erməni millətçilərinin dağıdıcı faşist mahiyyətini ifşa və onların törətdikləri bütün cinayətlərə, vandallıq aktlarına dünya ictimaiyyətinin diqqətini yenidən cəlb edir. Çünki ermənilər 30 il ərzində bütün yaşayış məskənlərimizi, mədəniyyət abidələrimizi, məscidləri və kilsələri vəhşicəsinə dağıdıblar. Nəzərə alaq ki, Prezidentin bütün səfərləri dünya KİV-nin diqqət mərkəzində olur, onun dediyi hər bir söz, verdiyi hər bir bəyanat diqqətlə izlənilir.

Bu da özünü sülhsevər, qədim və müdrik xalq kimi təqdim etməyə çalışan erməni təbliğat maşınına ölümcül zərbələr endirməyə imkan verir. Prezident İlham Əliyev Qubadlı görüşündə də bir neçə dəfə bu məqamlara toxundu: "Bütün kəndlər dağılıb, şəhər dağıdılıb, bir dənə də salamat kənd qalmayıb. Ona görə qubadlıları buraya yerləşdirmək üçün, əlbəttə ki, çox böyük işlər görüləcək. Burada infrastruktur işləri birinci sıradadır. İndi siz də gələndə gördünüz ki, çox geniş, dördzolaqlı yol çəkilir. Heç vaxt bu ölçüdə yol olmamışdır. Dar bir yol idi Zəngilandan Qubadlıya, Laçına. İndi biz Zəngilandan Qubadlıya, Laçına dördzolaqlı yol çəkirik ki, bu yoldan insanlar rahat istifadə etsinlər".

Azərbaycan Prezidentinin 44 günlük Vətən müharibəsində 30-dan çox xarici mətbu orqanına verdiyi müsahibələrinin hər biri sanki bir diplomatik döyüş idi. Bu gün bütün dünya Azərbaycanın ən yüksək səviyyədə ideoloji müharibə apardığını və İlham Əliyevin hər müsahibədə qazandığı şəksiz qələbəni görür. Dövlət başçısının işğaldan azad olunmuş rayonlarda ictimaiyyətlə görüşlərində də verdiyi mesajlar da elə Vətən müharibəsi zamanı verilən müsahibələrin davamı kimi düşmən təbliğatını ifşa edir.

İkincisi, Ali Baş Komandan işğaldan azad edillmiş bütün rayonlarda ictimaiyyət nümayəndələri ilə görüşlərində şəhidləri ehtiramla yad edir, bir çoxlarının adını şəxsən özü çəkir, onların valideynləri ilə görüşür, təşəkkürünü bildirir. Bu səfərlər zamanı Azərbaycan əsgərinin rəşadəti, cəsurluğu önə çəkilir, ordu quruculuğu barədə məlumatlar verilir, düşmənin istənilən gözlənilməz addımının ona baha başa gələcəyi bəyan edilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın oktyabrın 25-də Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışında iştirak etməsi ordu quruculuğuna nə dərəcədə ciddi önəm verildiyini təsdiq edir. Düşmən darmadağın edilsə də, onun məkrli siyasəti tələb edir ki, Azərbaycanda bütün qoşun növləri düşmənə istənilən vaxtı, istənilən şəraitdə sarsıdıcı zərbə endirmək gücündə olsun.

Bu görüşlərin ana mövzusunu işğaldan azad edilmiş ərazilərin bərpası, yüksək texnologiyaların tətbiqi, "ağıllı" kənd, səhər və kənd təsərrüfatı sistemlərinin həyata keçirilməsidir. Dövlət başçısı bütün səylərini Qarabağ-Zəngəzur bölgəsində quruculuq və bərpa işlərinin sürətlə davam etdirilməsinə, həyatın tezliklə adi axarına düşməsinə yönəltmişdir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" Yarımstansiyasının açılışında, Xanlıq-Qubadlı avtomobil yolunun təməlqoyma mərasimində iştirakı bir daha bütün Qarabağın inkişafının düşünülmüş və planlı şəkildə aparıldığını təsdiq edir.

İslahatların davam etməsi, dünyanın ən müasir inkişaf konsepsiyalarının Qarabağ-Zəngəzur zonasında tətbiqi və dağıntıların bərpası Azərbaycan Prezidenti üçün ən vacib məsələlərdəndir: "Ona görə də biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq. Qubadlı şəhərinin Baş planı hazırlanır və yəqin ki, yaxın aylarda təqdim ediləcək, o cümlədən Qubadlı ictimaiyyətinə təqdim ediləcəkdir. Əlbəttə ki, bu Baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq. Amma eyni zamanda artıq bu gün Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır. Bu gün biz yeni yarımstansiyanın açılışını qeyd etdik və bu, azad edilmiş torpaqlarda yeddinci yarımstansiyadır. Bu infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alır".

Oktyabrın 26-da Zəngilanın Ağalı kəndində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatında Azərbaycanın işğaldan azad edilən bölgələrinin qısa müddət ərzində dirçəlməsinə, ildırım sürəti ilə inkişaf etməsinə heyranlığını belə ifadə edib: "Bu, hər igidin, hər siyasətçinin işi deyil. Bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq, bu işləri həyata keçirmək inanıram ki, doğma yurdundan ayrılmağa məcbur qalmış azərbaycanlı qardaşlarım üçün buradan bir müjdə vermək imkanı yaradır. Çünki azərbaycanlı qardaşlarım ayrıldıqları torpaqlara inanıram ki, ən qısa vaxtda son dərəcə gözəl şəkildə inşa edilən, canlandırılan bu yerlərə qayıtmaq imkanı əldə edəcəklər".

Türkiyə kimi qüdrətli dövlətin liderinin Azərbaycanda islahatları belə yüksək qiymətləndirməsi, əlbəttə ki, sevinc doğuran bir haldır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# YAP Gənclər Birliyi və "Ze!Molodijka" təşkilatı arasında əməkdaşlıq haqqında memorandum imzalanıb

**Xarkov Diplomatiya Klubunda Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyi ilə Ukraynanın hakim "Sluqa Narodu" Partiyasının "Ze!Molodijka" gənclər qolu arasında görüş keçirilib.**

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Sluqa Narodu" Partiyasının "Ze!Molodijka" gənclər qolunun fəxri sədri, Ukrayna Ali Radasının deputatı Aleksandr Sançenko YAP Gənclər Birliyinin nümayəndə heyətini salamlayaraq səfər dəvətini qəbul etdiklərinə görə minnətdarlıq ifadə edib. Ukrayna gəncləri adından Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbə münasibətilə təbriklərini çatdırıb. Təmsil etdiyi "Ze!Molodijka" təşkilatının YAP Gənclər Birliyinin qazandığı geniş təcrübədən yararlanmaqda maraqlı olduğunu bildirən A.Sançenko tərəflər arasında sıx əlaqələrin qurulmasının vacibliyini vurğulayıb.

Görüşdə çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov göstərilən qonaqpərvərliyə və dəvətə görə təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, Azərbaycan 44 günlük Vətən müharibəsində 30 illik erməni işğalına son qoyaraq ölkəmizin ərazi bütövlüyünü bərpa edib, regionda yeni reallıqlar yaradıb.

Azərbaycan və Ukrayna arasında mövcud tarixi dostluq münasibətlərindən söhbət açan B.İslamov bu amilin iki ölkə gənclərinin gələcək fəaliyyətlərinin daha da möhkəmlənməsində vacib rol oynayacağını deyib. O, hər iki ölkənin hakim siyasi partiyalarının gənclər təşkilatları arasında sıx əməkdaşlığın qurulmasının vacibliyini qeyd edib.

Sonra YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və Ukraynanın hakim "Sluqa Narodu" Partiyasının "Ze!Molodijka" gənclər qolunun fəxri sədri Aleksandr Sançenko əməkdaşlıq haqqında memorandumu imzalayıblar.

Sənədə əsasən, Ukrayna və Azərbaycan gəncləri arasında təcrübə mübadilələrinin aparılması, birgə layihələrin reallaşdırılması və əməkdaşlığın dərinləşdirilməsi nəzərdə tutulur.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, birgə xatirə şəkli çəkdirilib.

# "Ən yaxşı artilleriya divizionu" adı uğrunda yarış keçirilir

**2021-ci ilin döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı artilleriya divizionu" adı uğrunda yarış keçirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yarışa cəlb olunan divizionların tədris-material bazası və şəxsi heyətin təchizatına baxıldıqdan sonra hərbi qulluqçuların hazırlıq səviyyəsi yoxlanılaraq fərdi və qrup şəklində normativlər qəbul edilir.

Daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edən bölmələr təyin olunmuş marşrutlarla hərəkət edərək atəş mövqelərini tuturlar.

Yarışın tələblərinə uyğun olaraq müəyyən olunmuş vaxt çərçivəsində artilleriya qurğuları atəş vəziyyətinə gətirilir, planlı və plandankənar hədəflərə döyüş atışları yerinə yetirilir.



QARABAĞ
dirçəliş yolundadır



◆ Zəfərin izi ilə

*Əvvəli 1-ci səh.*





# Şuşanın Bülbül nişanı

## Heydər Əliyevin yaratdığı ev-muzeyə İlham Əliyev Zəfəri ilə yeni həyat bəxş etdi

Yanvar 2021-ci il



Avqust 2021-ci il



Darvazanı aralayıb həyətə daxil olduq. İki nəfər bir tərəfdə palçıq qarışdırırdı. Bülbülün avazı altında zümzümə edən həmin şəxslərdən birini dərhal tanıdıq: keçmiş həmkarımız, indi isə muzeyə rəhbərlik edən Fəxrəddin Hacıbəyli idi. Muzeyə ziyarətçilərin gəldiyini görüb əllərini sildi və bizə yaxınlaşdı. Zarafatla "deyəsən, muzeyin həm direktoru, həm də fəhləsisiz" deyirik. O isə gülərək, amma ciddi şəkildə "Nəinki Bülbülün ev-muzeyinin, bütün Şuşanın fəhləsi, süpürgəçisi və qurucusuyuq. İllərlə bunu arzu etməmişik?" - deyir.

Sentyabr ayından Bülbülün ev-muzeyinə direktor təyin olunan Fəxrəddin Hacıbəyli Azərbaycanın mədəniyyət tarixini və Şuşanın mədəni irsini dərindən bilir. Fəxrəddin Hacıbəyli həm də vaxtilə Ağdamın Abdal-Gülablı kəndində Qurban Pirimovun ev-muzeyinin qurucusudur. Bülbülün ev-muzeyi barədə məlumatları, onun tarixi və taleyi ilə bağlı bildiklərini də həvəslə bizimlə bölüşdü.

Öyrənirik ki, Bülbülün dünyaya göz açdığı ev 1787-1788-ci illərdə onun ulu babası Kərbəlayı Yusif tərəfindən inşa olunub. 1897-ci il iyunun 22-də dünyaya gələn gələcəyin böyük sənətkarı - Murtuza Məşədi Rza oğlu Məmmədov bu evdə 8 nəfərlik ailəsi ilə yaşayıb. Ailədə 6 uşaq olublar. Uşaqların 5-i müxtəlif xəstəliklərdən dünyasını dəyişib.

Murtuza kiçik yaşlarında həyətdəki tut ağacına çıxarmış və bülbülləri təqlid edərmiş, daha doğrusu bülbül kimi cəh-cəh vurarmış. Bunu eşidən qonum-qonşu tədricən onu məlahətli və gözəl səsinə görə "Bülbül" deyə çağırmağa başlayır. Ecazkar səsi ilə hamını heyran qoyan, şaqraq zənguləleri ilə bülbülləri susduran böyük sənətkar Azərbaycanda və onun hüdudlarından çox-çox uzaqlarda elə "Bülbül" kimi tanınıb.

Bülbül həyətlərindəki bu tut ağacına çox bağlı olub. 1871-ci ildə əkilən həmin ağacın bu il 150 yaşı tamam olur. Həyətdə isə yanaşı üç tut ağacı olub. Maraqlıdır ki, vandal düşmən yalnız onlardan birini kəsib və Bülbülün uşaq vaxtı çıxıb oxuduğu ağaca toxunmayıb.

### 234 yaşlı mülkün muzey taleyi

Özünün çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın musiqi mədəniyyəti tarixində silinməz izlər qoyan, milli musiqi irsimizin incilərinin qorunub saxlanılmasında və gələcək nəsillərə çatdırılmasında müstəsna xidmətləri olan Bülbülə və eləcə də onun ailəsinə hər zaman Ulu Öndər Heydər Əliyevin, ailə üzvlərinin xüsusi diqqəti, himayəsi və rəğbəti olub. Heydər Əliyev hələ hakimiyyətinin birinci dövründə Bülbülün möhtəşəm ifaçılığını nəinki keçmiş SSRİ məkanında, bütün dünyada tərənnüm etdirib. Onu Azərbaycan mədəniyyətinin və ifaçılıq sənətinin rəmzi kimi tanıtdırıb.

Məhz Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi tərəfindən 1982-ci il avqustun 31-də Bülbülün doğulduğu və yaşadığı evin muzeyə çevrilməsi barədə qərar qəbul edib. Ev-muzeyinin binası 1982-1983-cü illərdə təmir olunub, ekspozisiyası qurulub və fəaliyyətə başlayıb. Həmin vaxt həyətdə Bülbülün büstü də qoyulub. 1976-cı ildə Şuşada, 1982-ci ildə isə Bakıda Bülbülün memorial muzeyi açılıb.

Müstəqil Azərbaycana rəhbərliyi dövründə də Heydər Əliyev Bülbülün irsinin yaşadılmasına və təbliğinə diqqətlə yanaşıb. 1997-ci ildə Heydər Əliyevin sərəncamı ilə Bülbülün 100 illik yubileyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunub. "Bülbül, onun yaradıcılığı Azərbaycan mədəniyyətinin tarixində nadir, parlaq bir hadisədir. Azərbaycanın gözəl guşələrindən biri olan, canımız qədər istədiyimiz Qarabağ torpağında, müqəddəs Şuşa şəhərində dünyaya gəlmiş Bülbül öz fitri istedadı ilə, fədakarlığı ilə Azərbaycan mədəniyyətinin parlaq ulduzuna çevrilmiş və bizim milli iftixarımızdır. Bülbülün sənətinin əsasını təşkil edən onun təkraredilməz səsi, fitri istedadı, fədakarlığı və böyük yaradıcılıq yoludur. Bülbül Azərbaycan xalqının həyatında yeni bir bəşəri mədəniyyət nümunəsinin yaranmasının banisi olaraq, eyni zamanda, xalqımıza bu sahədə çox uğurlu yollar açmışdır", - deyə Ulu Öndər həmin tədbirdə bildirib.

Həmin ildən başlayaraq, mütəmadi olaraq, vokalçıların Bülbül adına beynəlxalq müsabiqəsi keçirilir, bu müsabiqəyə dünyanın bir çox ölkəsindən gələn vokalçılar qatılırlar.

Dahi sənətkarın irsinin yaşadılması Prezident İlham Əliyevin də daim xüsusi diqqətindədir. Prezident İlham Əliyevin sərəncamları ilə Bülbülün 110 və 120 illik yubileyləri dövlət səviyyəsində qeyd edilib. 2012-ci ildə isə Prezident İlham Əliyevin iştirakı ilə Bakıda, Bülbül prospektində Bülbülün xatirəsinə ucaldılmış abidənin açılışı olub.

Təsadüfi deyil ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad etdiyi Şuşada ilk həyat bəxş etdiyi ünvanlardan biri də Bülbülün ev-muzeyidir.




















### Bərpa zamanı evin və həyətin orijinallığı qorunub saxlanılıb

Fəxrəddin Hacıbəylinin sözlərinə görə, muzeydə Bülbülün uşaqlıq illərinə aid şəkillər, şəxsi əşyalarından bəziləri, o cümlədən onun qavalı nümayiş etdirilirdi. Muzeydə Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyətini əks etdirən 9 minə yaxın sənəd toplanmışdı. Burada, həmçinin Azərbaycanda yeni vokal məktəbinin yaradılmasında, xalq musiqisinin öyrənilməsi və təbliğində Bülbülün çoxillik səmərəli yaradıcı işini təsdiq edən materiallar nümayiş etdirilirdi.

Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırmışdı.

Prezident İlham Əliyev Vətən müharibəsindəki qələbədən sonra Şuşaya bu ilin yanvar ayında etdiyi ilk səfərində birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Bülbülün dağıdılmış ev-muzeyinə də baxmış, bərpası ilə bağlı tapşırıq və tövsiyələrini vermişdi.

Həmin səfər zamanı İlham Əliyev özü ilə Şuşaya Bülbülün büstünü də gətirmişdi. Xatırladaq ki, ermənilər Bülbülün, Xurşidbanu Natəvanın və Üzeyir bəy Hacıbəylinin büstlərinə qarşı vandallıq edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. O zaman Polad Bülbüloğlu bundan xəbər tutmuş və Ulu Öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən pulla alınaraq Bakıya gətirilmişdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə avqustun 29-da Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı olub.

Fəxrəddin Hacıbəylinin bildirdiyinə görə, işğal dövründə muzey tamamilə dağıdılıb, evdən və həyətdəki inzibati binadan isə başqa məqsədlər üçün istifadə olunub. Düşmən inzibati binanı kazarmaya çeviribmiş. Muzeyin otaqlarından birinə odun yığılırmış, digər otaqda isə erməni zabitləri yaşayırmış. İşğal zamanı ev yararsız hala salınmış, divarlarında çatlar əmələ gəlmişdi.

Bərpa barədə danışarkən əvvəlcə ev-muzeyin həyətyanı sahəsində görülən işlərdən söz açan Fəxrəddin Hacıbəyli dedi ki, həyətin ilkin görkəmi və quruluşu saxlanılıb. Evin qarşısında Bülbülün yeni hazırlanan büstü ucaldılıb. Şuşa şəhəri işğalda olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü isə erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılıb.

Evin özünə gəldikdə, bərpa zamanı bütün divarların bünövrəsi möhkəmləndirilib, çat olan hissələrində yenidənqurma işləri aparılıb. Binanın daxili otaqlarında çürümüş taxta döşəmələr yeniləri ilə əvəz olunub. Dam örtüyü, qapı və pəncərələri çürüdüyündən və istismara yararsız halda olduğundan, binanın tarixi görkəmi qorunmaqla yenisi ilə əvəz edilib.

Bərpa işləri zamanı evin eyvana tərəf olan divarlarında suvaq altından daş üzərində yonulmuş ərəb əlifbası ilə iki yazı və günəş simvolunu əks etdirən təsvir aşkar olunub. Yazıların birində Qurandan ayə, digərində isə evin tikilmə tarixi qeyd edilib. Divarın üzərində yeni aşkar olunmuş yazıda göstərilir ki, bina 1788-ci ildə inşa edilib. Bu qədim təsvirlərin sovet dövründə də üstü suvanmış olduğu üçün onların aşkar olunaraq nümayiş etdirilməsi ev-muzey üçün yenilikdir. Əlavə edək ki, bu ev tipoloji mənsubiyyətinə görə Qarabağ və Azərbaycanın tarixi yaşayış binalarının xüsusiyyətini özündə əks etdirir. Otaqların daxili quruluşu Azərbaycanın ənənəvi evlərinə xasdır.

Bütövlükdə, ev-muzeyin xarici görkəmi 1992-ci ilə qədər necə olmuşdusa, o cür də bərpa edilib. Heç nə dəyişməyib. Foto və lentlərə baxaraq təmir zamanı binanın və həyətin orijinallığı qorunub saxlanılıb. Onu da öyrənirik ki, ev-muzeyin bərpası zamanı istifadə olunan daşlar "rasta" adlanır və Şuşanın özünəməxsus arxitekturasının əsas tikinti elementlərindəndir.

Həyətdəki ikimərtəbəli inzibati binanın birinci mərtəbəsi ev-muzeyin əməkdaşlarının fəaliyyəti üçündür. Hazırda ev-muzeyin 6 əməkdaşı var. İkinci mərtəbə isə Bülbülün övladı, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun iş otağıdır. Fəxrəddin Hacıbəyli deyir ki, Polad Bülbüloğlunun da uşaqlığı bu həyətdə keçib və onun istedadının üzə çıxmasında Şuşa mühitinin çox böyük rolu olub.

### Bülbülün də ruhu sevinir

Ev-muzeyə daxil olaraq Bülbülün yeni qurulmuş muzey ekspozisiyası ilə tanış oluruq. Otaqlardan birində Bülbülün həyat və yaradıcılığına dair bir neçə guşə yaradılıb. Bu guşələrdən birində Bülbülün görkəmli şəxsiyyətlər - Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Süleyman Ələsgərov, Səid Rüstəmov, Sidqi Ruhulla, Cövdət Hacıyev, Niyazi, Rəşid Behbudov, Fikrət Əmirov, Azərbaycanda neft kimyasının əsasını qoymuş böyük alim Yusif Məmmədəliyevlə şəkilləri yer alıb.

Muzeydə Ulu Öndər Heydər Əliyevin və Zərifə Əliyevanın Bülbülə və onun həyat yoldaşı Adelaida Məmmədovaya öz xətləri ilə yazdıqları məktublar nümayiş olunur. Muzeydə dahi şəxsiyyətlərin Bülbül haqqında söylədiyi fikirlər də yer alıb.

Bülbüllə bağlı maraqlı bir faktla da rastlaşdıq. Sən demə, dahi sənətkar Böyük Vətən müharibəsi zamanı öz adından cəbhəyə 100 min, həyat yoldaşının adından isə 20 min rubl yardım göstərib və İ.Stalinə məktub yazaraq xahiş edib ki, göndərdiyi vəsaitlə düşmənə qarşı döyüşmək üçün tank istehsal edilsin. İ.Stalin buna görə Bülbülə iki dəfə təşəkkür teleqramı göndərib. Həmin teleqramlar da muzeydə nümayiş olunur.

Bülbül professional opera sənətinin banisi olmaqla yanaşı, həm də ictimai xadim idi. Onun xalqımızın qarşısındakı ən böyük xidmətlərindən biri tanınmış muğam ustadlarının səslərinin qramafon vallarına yazılması olub. Qurban Pirimov, Cabbar Qaryağdıoğlu kimi sənətkarların səslərinin bu günümüzə qədər gəlib çatmasında Bülbülün böyük xidmətləri var. Muzeydə onların səslərinin yazılması prosesindən çəkilən şəkilləri də görmək olur.

Muzeyin təsirli guşəsi isə Bülbülün evin həyətində, eyvanında, tut ağacının yanında çəkilmiş şəkilləridir. 1961-ci ildə, ömrünün sonlarına yaxın haqqında çəkilmiş filmdən götürülən bu şəkillərdə o narahat görünür, sanki vidalaşmağa gəlib. Sanki hiss edir ki, bu onun Şuşaya, doğma evinə son gəlişidir...

Binanın digər otağında Bülbülün uşaqlıq dövründə Şuşa məişətini əks etdirən eksponatlar - soba, beşik, sandıq, habelə böyük sənətkarın 17 yaşında aldığı ilk pasportu, özünə aid sənədlərini saxladığı sandıqça, şəxsi qavalı və s. nümayiş olunur. Bu otağın ən maraqlı eksponatlarından biri də Bülbülün 12-13 yaşına aid maketidir.

Muzeydə bütün Azərbaycan muzeyləri içərisində yeganə olan xüsusi monitor da quraşdırılıb. Hələlik iki dildə olan bu monitorda Bülbülün həyatı və yaradıcılığı ilə elektron formada əhatəli şəkildə tanış olmaq mümkündür. Yaxın vaxtlarda monitor vasitəsilə Bülbül barədə məlumatlar beş dildə təqdim olunacaq.

*Bülbülün yurdundan xoş təəssüratlarla ayrıldıq. Bu ev-muzey Prezident İlham Əliyevin himayəsi ilə böyük sənətkarın adına layiq şəkildə bərpa edilib və milli musiqi irsimizi dünyaya təbliğ edən ünvan kimi fəaliyyətini yenidən davam etdirir. Ona görə Bülbülün ruhu da şaddır. Bülbülün ruhu həm də ona görə şaddır ki, doğma Şuşası artıq işğal altında deyil.*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***
*Bakı-Şuşa-Bakı*













# Zəfərin «ASAN» tərənnümü

## Şəki Regional "ASAN xidmət" Mərkəzində vətəndaşlara operativ xidmətlə yanaşı, şanlı Qələbəmizi əks etdirən layihələr də reallaşdırılır

*Əvvəli 1-ci səh.*

### Azərbaycanın 15-ci "ASAN"ı

Şəhərin Zərifə Əliyeva küçəsində yerləşən, öz möhtəşəmliyi ilə seçilən "ASAN Həyat" kompleksinin tikintisinə 2017-ci ildə başlanılıb və inşaat işləri 2018-ci ilin oktyabrında başa çatdırılıb. Oktyabrın 29-da isə Prezident İlham Əliyev Şəki "ASAN Həyat" kompleksinin açılışını edib.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev deyir ki, "ASAN Həyat" kompleksi üçün 2,4 hektar ərazi ayrılıb. Bu ərazidə "ASAN xidmət" mərkəzi, "ABAD" mərkəzi, "ASAN təlim" mərkəzi, "ASAN kinoteatr", "ASAN peşə", "INNOLAND AREA" mərkəzi, "ASAN kafe" və "ASAN park" fəaliyyət göstərir. "ASAN park"da uşaq meydançası, fəvvarə və oturacaqlar, istirahət meydançası, avtodayanacaq, yay kafesi və digər rayonlardan gələn vətəndaşlar üçün avtobus dayanacağı yaradılıb.

E.Niftəliyevin sözlərinə görə, ölkəmizdə sayca 15-ci "ASAN xidmət" mərkəzi olan Şəki regional mərkəzi 2018-ci il dekabrın 11-də fəaliyyətə başlayıb. Mərkəz Şəki, Balakən, Zaqatala, Qax və Oğuz rayonlarında qeydiyyatda olan 510 mindən çox vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərir.

Mərkəzin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsiplərinə və vətəndaş rahatlığına hesablanıb. Fəaliyyət göstərdiyi müddətdə 560 mindən çox vətəndaş müraciəti qeydə alınıb. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 320-dən çox xidmət həyata keçirilir.











### Nəzakətlilik, şəffaflıq prinsipləri hər zaman prioritetdir

Mərkəzin inzibati binası fərqli xarici üslubu ilə yanaşı, daxili interyeri, genişliyi, son dərəcə təmizliyi ilə də ilk andan insanda xoş ovqat yaradır.

Bütün "ASAN xidmət"lərdə olduğu kimi, Şəki regional "ASAN xidmət" mərkəzində də vətəndaşların qarşılanmasından tutmuş müraciətlərinə baxılmasına kimi bütün proseslər xoş təəssüratlar və məmnunluq yaradır.

Mərkəzə daxil olarkən diqqəti çəkən ilk məqam dezinfeksiya qaydalarına ciddi əməl edilməsidir. Xüsusi aparatla vətəndaşların hərarəti yoxlanılır, sonra əlləri spirtlənir. Məlumat mərkəzində əyləşən əməkdaşlar tibbi maskadan istifadə etməklə bir-birindən aralı əyləşirlər. Elə ilk addımından şəffaf və operativ xidmət məkanına düşdüyünü başa düşən vətəndaşı gülərüz və mehriban personal qarşılayaraq ona ilk lazım olan informasiyanı verir. Beləcə, hər kəs asanlıqla istənilən xidmətdən yararlana bilir. Vətəndaşın mərkəzin inzibati binasına daxil olmasından başlayan bütün proseslər koronavirus təhlükəsi səbəbindən sosial məsafə tələblərinə əməl edilməklə həyata keçirilir.

İlk söhbət etdiyimiz vətəndaşların qəbulu işinin təşkili sektorunun direktor müavini Bəhruz Nəsibov artıq 3 ildir burada çalışır. Vətəndaşlara informasiyanın verilməsi, elektron növbə ilə təmin edilməsi və digər müxtəlif xidmətlərin göstərilməsi prosesində məsul işçidir. Deyir ki, burada hər bir vətəndaşın xidmətdən razı qalması və məmnunluq ifadə etməsi üçün əməkdaşlar, ilk növbədə, nəzakətli davranış prinsiplərinə əməl edirlər: "Vətəndaş buraya gələndə acıqlı, hirsli də ola bilər. Amma biz əlimizdən gələni edirik ki, hər bir vətəndaşla nəzakətli davranıb istədiyi məlumatı verək və sənədlərinin hazırlanmasına yardımçı olaq. Əməkdaşlarımız daim təmkinli, diqqətli və çevikdirlər". Onu da əlavə edək ki, Bəhruz Nəsibov həm də Vətən müharibəsi iştirakçısıdır. İkinci Qarabağ müharibəsinə könüllü zabit kimi yollanan Bəhruz Nəsibov Ağdam və Qubadlı istiqamətində əməliyyatlarda iştirak edib.

Mərkəzin baş mütəxəssisi Orxan Cəfərov da 3 ildir ki, burada fəaliyyət göstərir. Deyir ki, vətəndaşlarla işləmək, onlara kömək göstərmək, işlərinin tez bir zamanda həllinə yardımçı olmaq həm fəaliyyətlə məmnunluq yaradır, həm də böyük savab qazanılır: "İnsanlar hər hansısa sənəd üçün buraya təşrif buyuranda onları qarşılayıb işlərinin asanlıqla həll olunmasına yardım edirəm və onların bizdən razı qalması, "çox sağ olun" deyib gülər üzlə evlərinə getməsi bizi məmnun edir".

### "ASAN nikah" sürprizi

Ümumiyyətlə, "ASAN xidmət" mərkəzləri vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət göstərən müxtəlif sahələri əhatə edir və vətəndaşlar tərəfindən çox xoş qarşılanır.

Mərkəzə müraciət edən vətəndaşlarla etdiyimiz söhbətlər zamanı buna şahidlik edirik. Rayon sakini Aynur Mustafayeva deyir ki, əvvəllər müxtəlif sənədləri almaqda çətinlik çəkiblər. Amma 3 ildir işləri çox asanlaşıb: "Bu gün mənzilin elektrik enerjisi problemini həll etməyə gəlmişdim. Bir neçə dəqiqənin içində həll elədim və rahat şəkildə evə qayıdıram. Çox razıyıq və təşəkkür edirik ki, biz vətəndaşların rahatlığı üçün dövlət belə yüksək şərait yaradır".

Məmməd Məmmədov isə artıq bir neçə dəfə "ASAN xidmət" mərkəzindən faydalanıb. Hər dəfə də məmnun qalıb: "Adətən, notariat işləri ilə bağlı müraciət edirəm. Artıq saatlarla heç bir idarənin qapısında gözləmirik. Burada elə gözəl xidmət göstərirlər ki, adamın ürəyi dağa dönür. Sağ olsun Prezident İlham Əliyevi. Xalqın rahatlığı üçün bu cür gözəl xidmətlər yaradır və hər kəs də ona alqış edir".

Reportajımız zamanı maraqlı bir tarixi hadisəyə də şahidlik etdik. Belə ki, rayon sakinləri Orxan və Türanə cütlüyü nikahlarını "ASAN xidmət"də bağlayırdılar. Bu, 3 illik yubileyin ən yaddaqalan məqamı oldu. Cütlüyün sevincini isə özləri bizimlə paylaşdılar. Orxan deyir ki, oktyabrın 29-da "ASAN xidmət"in 3 illiyinin tamam olmasından xəbərləri olmayıb: "Nikaha daxil olmaq üçün əvvəlcədən müraciət etmişdik. Qismətdən nikahımız gəlib eyni günə düşdü. Həm sevincli, həm də həyəcanlıyam. Mən də xidmətin əməkdaşlarını təbrik edirəm və hər zaman işlərində uğurlar arzulayıram. Qoy bizim işlərimizi necə rahat şəkildə həyata keçirirlərsə, onların da işi həmişə asan olsun".

### Azərbaycan gəncliyinin siması - "ASAN könüllüləri"

Prezident İlham Əliyevin söylədiyi kimi, "ASAN xidmət" mərkəzləri həm də gənclər mərkəzidir. Artıq demək olar ki, minlərlə gənc "ASAN xidmət"də çalışıb, təcrübə qazanıb. Könüllülər hərəkatı da məhz "ASAN xidmət" mərkəzlərində başlayıb.

Fəaliyyəti dövründə Şəki regional "ASAN xidmət" mərkəzində 511 könüllü çalışıb. Bunlardan 491 nəfəri məzun, 20 nəfəri cari könüllüdür.

Gənclərdən Mehriban İbrahimova, Cavid Rəsulovla söhbətləşirik. Gənclər deyirlər ki, burada çalışmaq, ilk növbədə, onların həyatında dönüş yaradıb. Vətəndaşlarla xoş ünsiyyətdə olmaq, həm də könüllü kimi onlara xidmət göstərmək bizə həyat təcrübəsi də qazandırıb. Gənclər hesab edirlər ki, bu xidmətin bir parçası olmaq onlar üçün qürurvericidir.

Mərkəzin açılışı zamanı gənclərlə görüşündə Prezident İlham Əliyev "ASAN xidmət"i dövlətin gənclər siyasətinin bariz təcəssümü adlandırmışdı. Çünki "ASAN xidmət" mərkəzlərində işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Azərbaycanda könüllülər hərəkatı öz fəaliyyətinə "ASAN xidmət"dən start verib. Bu günə qədər bütün "ASAN xidmət" mərkəzlərində minlərlə könüllü təcrübə qazanıb, təlim keçib, vətəndaşlarla təmasda olub və artıq müstəqil həyata tam hazırdırlar. "ASAN xidmət" kadr hazırlığı baxımından da çox uğurlu təşəbbüsdür.

Əlavə edək ki, "ASAN könüllüləri" Vətən müharibəsindəki şanlı Qələbəmizi tərənnüm edən müxtəlif layihələr həyata keçirirlər. Onlardan biri də könüllülərin böyük Zəfəri əks etdirən rəsm əsərləridir. Gənclərin müxtəlif janrlarda çəkdikləri əsərlər mərkəzdə nümayiş olunur. Bu da kompleksə təşrif buyuran hər kəsdə böyük maraq doğurur.

Gənclərlə söhbətləşdikdən sonra kompleksdəki "ASAN peşə" və "INNOLAND AREA" mərkəzlərinin fəaliyyətləri ilə maraqlanırıq. İxtisaslı kadrların hazırlanmasını və onların əmək bazarının dəyişən tələblərinə uyğun rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi üçün yaradılan "ASAN peşə"də tütünçülük, laboratoriya, bağçılıq, logistika-texnologiya, ipəkçilik və fındıq yetişdirilməsi, eləcə də gənclərin dərzi, informasiya texnologiyaları, rəsm peşələrinə yiyələnmələri, həmçinin uşaqların intellektual düşüncələrinin artırılmasını nəzərdə tutan şahmat dərsləri üçün lazımi şəraitə malik otaqlar mövcuddur.

"INNOLAND AREA" mərkəzinin yaradılmasında məqsəd isə regionlarda startapların inkişafını təmin edəcək ekosistemin formalaşmasını dəstəkləmək və regional potensialı artırmaq istiqamətində əlverişli şəraiti gücləndirməkdir. O cümlədən regionlarda yaşayan 4-19 yaş arası uşaq və gənclərin inkişafı üçün mühəndislik və robototexnika sahəsində dərnəklər və təlimlər təşkil etmək və onları sahibkarlıq, biznes, innovasiya, startap, layihə idarəetməsi və s. kimi fərqli sahələrdə məlumatlandırmaq və maarifləndirmək əsas hədəflərdəndir.

Göründüyü kimi, Şəki "ASAN Həyat" kompleksində gənclərin, uşaqların, yaşlı nəslin nümayəndələrinin asudə vaxtlarının rahat keçirməsi üçün hər cür şərait yaradılıb. Bütün bunlar vətəndaşlar tərəfindən çox yüksək qiymətləndirilir.

Şəki "ASAN Həyat" kompleksinin fəaliyyəti bizdə də xoş ovqat yaratdı və 3 yaşını qeyd edən "ASAN xidmət" mərkəzinin əməkdaşlarını təbrik edib gələcək fəaliyyətlərində uğurlar arzuladıq.

### Milli brendin məmnunluq əmsalı 99,5 faiz təşkil edir

Sirr deyil ki, İlham Əliyevin müəllifi olduğu "ASAN xidmət"in yaradılması ictimai xidmətlər sahəsində inqilabi dəyişiklik sayılır. Eyni zamanda bu, yeni davranış qaydalarının tətbiq edilməsidir.

Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan və 2013-cü ildə 5 mərkəz, 2 səyyar avtobusla xidmətə başlayan "ASAN xidmət" 2021-ci ildə 21 xidmət mərkəzi, 1 qatar və 10 səyyar avtobusla fəaliyyətini davam etdirir.

Hazırda ölkədə 21 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 6-sı Bakı şəhərində, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndə fəaliyyət göstərir.

Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur. "ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320-dən çox xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 7 milyon 596 mindən çox vətəndaşın 47 milyondan artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

*Göründüyü kimi, Azərbaycanı tanıtdıran və təbliğ edən milli brendimiz olan "ASAN xidmət" bu gün ölkəmizdə müasir, mədəni, xalqımızın mentalitetinə xas olan dəyərləri tətbiq və təbliğ edir. Bir sözlə, "ASAN xidmət" ölkəmizin ictimai həyatında əvəzsiz rol oynayır. Əminliklə deyə bilərik ki, Azəbaycanın intellektual məhsulu olan bu mərkəzlər vətəndaş məmnunluğuna xidmət edir.*

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Delta plyus" bəzi mutasiyaya malikdir

## Virusun yeni növünün dominat olmayacağı ehtimal edilir

Yarandığı vaxtdan müxtəlif mutant dəyişikliklərə məruz qalan koronavirusun "Delta plyus" və ya "AY.4.2" adlandırılan yeni növü qısa zaman ərzində sürətlə yayıla bilmə baxımından daha çox narahatlıq doğurur. Virusun yeni ştamının yayılma coğrafiyasının getdikcə genişlənməsi onun təhlükəli olub-olmaması ilə bağlı müxtəlif fikirlərin ortaya çıxmasına səbəb olub.



### Fərqli fikirlər, müxtəlif proqnozlar var

London Universitet Kollecinin Genetika İnstitutu "Delta"nın yeni növünün əvvəlkilərdən 10-15 faiz daha sürətlə yayıla biləcəyi versiyasını irəli sürür. Yeni növün hətta yoluxma hallarının artmasına təkan verə biləcəyi də istisna edilmir.

Böyük Britaniyada "Delta" ilə müqayisədə "Delta plyus"un artım tempinin daha çox olmasına dair bəzi erkən sübutların olduğu da bildirilir. Amma ümumilikdə virusun yayılması ilə bağlı açıqlanmış fikirlər hələ ki tam olaraq öz təsdiqini tapmayıb.

Yeni növün daha ağır fəsadlar yarada biləcəyinə dair də indiyədək heç bir dəlil ortaya qoyulmayıb.

Hazırda dünya alimləri "Delta plyus"un yayılma sürətinin və onun digər xüsusiyyətlərinin öyrənilməsi istiqamətində müxtəlif araşdırmalar aparırlar. Koronavirusun "AY.4.2" növünün yayılmasının səbəbini daha dəqiq öyrənmək üçün tədqiqatlarını davam etdirən mütəxəssislər "Delta plyus"un COVID-19-u daha yoluxucu formaya sala bilməsi barədə hər hansı sübutun olmadığını deyirlər.

"AY.4.2"lə bağlı araşdırma aparan İngiltərə alimləri "Delta plyus"un koronavirusun məhv olmasına imkan verməyən bəzi mutasiyalara malik olduğunu söyləyiblər. Lakin bəzi tədqiqatçılar daha "xoş" proqnozlar verərək "AY.4.2"nin indiki mərhələdə dominat olmayacağını proqnozlaşdırırlar.

Türkiyənin yoluxucu xəstəliklər və klinik mikrobiologiya üzrə mütəxəssisi, professor Deniz Atakent də hazırda yeni növlə bağlı panikanın yaranmasına səbəb görmür. O hesab edir ki, "Delta plyus" asanlıqla yayılır, daha yoluxucudur, ağciyər hüceyrələrinə daha asan yapışa bilər, monoklonal antikor terapiyasına potensial olaraq davamlıdır. Bununla belə, onun orijinal "Delta" variantından daha yoluxucu, daha ağır və ya daha təhlükəli olduğunu göstərmək üçün kifayət qədər məlumat yoxdur.

Harvard Universitetinin yoluxucu xəstəliklərin epidemiologiyası və təkamülü üzrə mütəxəssisi, professor Vilyam Hanage deyib ki, variantın adının "Delta plyus" olmasından qorxmaq lazım deyil: "Bu, bir az "Delta"nın "nəvə"sinə bənzəyir. "Delta" ilk dəfə keçən il Hindistanda müəyyən edildikdən sonra inkişaf etməyə və daha çox mutasiya əldə etməyə davam etdi. Bu mutasiyalar "Delta"nın bir çox variantını, o cümlədən "Delta plyus"u yaratdı".

Vilyam Hanage açıqlayıb ki, indiyə qədər "Delta" nəslindən olan hər hansı bir növün daha təhlükəli variantlara çevrildiyinə dair tutarlı bir dəlil yoxdur. O, Birləşmiş Krallıqda "Delta plyus"a yoluxmanın 6 faiz göstəricisinə çatması üçün bir neçə ayın lazım olduğunu söyləyib. Professor əmindir ki, "Delta plyus" müəyyən üstünlük əldə edə bilsə də, o, ana "Delta"da görülən partlayış sürəti ilə yayılmayacaq.

### Peyvəndlər "Delta plyus" ştamına qarşı effektivliyini qorumaqdadır

Hazırda "Delta plyus" virusunun yayıldığı əsas məkan Böyük Britaniyadır. "AY.4.2"yə yoluxma hallarının 90 faizindən çoxuna burada rast gəlinir. Ümumilikdə isə Britaniyadakı COVID-19-a yoluxma hallarının təxminən 6 faizinin "AY.4.2" növü olduğu təsdiqlənib. Yoluxma hallarındakı artım tempinə baxmayaraq, yeni növ hələ də risk səviyyəsinə görə ən yüksək kateqoriyaya daxil edilən "narahatlıq variantı" hesab edilmir.

İngiltərənin Genetika İnstitutunun direktoru, professor Fransua Balloux qeyd edib ki, hazırda "AY.4.2"nin ərazisi, əsasən, Böyük Britaniya ilə məhdudlaşır. Başqa ölkələrdə bu virusa olduqca az hallarda rast gəlinir. ABŞ-ın səhiyyə rəsmiləri də koronavirusun yeni növünə hələ çox az rast gəldiklərini təsdiqləyirlər.

Hazırda insanların əsas narahatlıqları yeni növlərin COVID-19 peyvəndlərinin təsir gücünü zəiflədə bilib-bilməyəcəyi ilə bağlıdır. Elm adamları bu məsələ ilə bağlı insanları rahatlaşdıraraq onlara hazırkı peyvəndlərdən istifadəyə davam etməyi məsləhət görürlər. Onlar pandemiya virusunun mövcud variantlarından hər hansı birinə qarşı yeni peyvəndin yaradılmasına ehtiyacın olmadığını, eyni zamanda, bununla bağlı yeni təklifin ortaya qoyulmadığını da açıqlayırlar. Vaksinlər üzrə tədqiqat aparan mütəxəssislər əmindirlər ki, mövcud peyvəndlər insanları qorumaq üçün yaxşı səmərə verir. Hazırda istifadə olunan vaksinlər "Delta plyus" ştamına qarşı effektivliyini qorumaqdadır.

Koronavirusun yeni ştamlarının ortaya çıxması insanlar arasında müəyyən narahatlıqlar yaratsa da, mütəxəssislər bu dəyişiklikləri təbii qarşılayırlar. Onlar deyirlər ki, viruslar hər zaman mutasiya edə bilir, buna görə də yeni versiyaların ortaya çıxması təəccüblü deyil. Ancaq insanlar zaman-zaman yeni növləri ortaya çıxan pandemiyanın bitməməsindən də artıq usanıblar.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Gebreyesus isə dünyada koronavirus pandemiyasına qalib gəlmək üçün bütün lazımi vasitələrin, o cümlədən tibbi vasitələrin olduğunu, lakin bu imkanlardan düzgün istifadə edilmədiyini açıqlayıb: "Mənə tez-tez pandemiyanın nə vaxt bitəcəyi sualı verilir. Cavabım budur ki, pandemiya dünya onu dayandırmağa qərar verəndə sona çatacaq. Bütün "G20" ölkələri beynəlxalq COVAX və AVAT (Afrika Peyvəndalma İşçi Qrupu) mexanizmlərinin dərman tədarükünü prioritetləşdirməlidir. "G20" ölkələri dərhal öhdəliklərini yerinə yetirməli və dozaları paylaşmalıdırlar. İstehsalçılar COVAX və AVAT ilə müqavilələrini təcili şəkildə yerinə yetirməli, nəyin hara göndərilməsində daha şəffaf olmalıdırlar. Bunu etsək, pandemiyaya son qoya bilərik və qlobal sağalmanı sürətləndirə bilərik".

Baş direktor bu ilin sonuna qədər dünya ictimaiyyətinin ən azı 40 faizinin peyvəndlənməsini zəruri sayıb.

İngiltərənin Sağlamlıq Təhlükəsizliyi Agentliyinin baş icraçı direktoru Jenny Harries də virusun bütün növlərindən qorunma tövsiyələrinin eyni olduğunu bir daha xatırladaraq risk qrupuna daxil olan insanları üçüncü (buster) doza qəbul etməyi məsləhət görür: "Ehtiyatlı olmağa davam edin. İnsanların sıx olduğu yerlərdə maska taxın və qapalı yerlərdə insanlarla görüşərkən otağı havalandırmaq üçün pəncərə və qapıları açın. Əgər simptomlarınız varsa, PCR testindən keçin və mənfi nəticə alana qədər evdə təcrid olun".

Yeri gəlmişkən, qeyd edək ki, üçüncü doza vaksin vurduranlarda ağırlaşma halları sıfıra yaxın olur. Dünyada üçüncü doza vaksin olunmuş şəxslər arasında koronavirusun ağır keçirilməsinin və ölüm hallarının aşağı düşdüyü də müşahidə edilib. Üçüncü dozanı "CoronaVax" peyvəndindən 3-4 ay, "Pfizer"dən isə maksimum 6 ay sonra vurdurmaq lazımdır.

Hazırkı şəraitdə nəzərə alınmalıdır ki, koronavirusun hansı ştamının ortaya çıxmasından asılı olmayaraq, virusun istər müalicə, istər profilaktika tədbirləri eynidir. Buna görə də insanlar indiyədək həyata keçirdikləri qoruyucu tədbirləri bundan sonra da davam etdirməlidirlər, vaksin olunmaqdan çəkinməli deyillər.







***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***




# Çoxmərtəbəli binalarla tanışlıq

## *Səhranın Çikaqosu*

Mənzil anlayışı daha əsaslı şəkildə formalaşana qədər insanlar ən çox 1 və ya 2 mərtəbəli evlərlə tanış idilər. Təəccüblüdür ki, ilk çoxmərtəbəli binaların məskəni Yəməndir. Şibam şəhərində yerləşən bu binaların 1700 illik yaşı var. Hətta buranı "Göydələnlər şəhəri", "Səhranın Çikaqosu" da adlandırırlar.

Səhrada salınan yaşayış məskəni dünyanın ilk meqapolisinə bənzəyir. Şibam şəhərinin ticarət əlaqələrinin genişliyi onu zəngin yerlərdən biri edirdi. Bu səbəblə də şəhər sakinləri daim hücumlara məruz qalırdılar. Şəhərin strateji divarlarla əhatələnməsi bu hücumlardan qorunmaq üçün vasitə idi. Hörülən divarlar isə bir şəhər əmələ gətirmişdi. Binalar boydan-boya düzülərək tikilmişdi. Şəhərdə məskunlaşan insanlar məhz bu çoxmərtəbəli binalar vasitəsilə bədəvilərin hücumlarından müdafiə oluna bilirdilər.

Şibam binaları çiy kərpic və gildən inşa edilib. Binalardakı ümumi mərtəbələrin sayı 5-dən 11-ə qədərdir. Hər mərtəbədə bir və ya iki otaq var. Binaların aralarında körpülər inşa edilib. Bu körpülərlə sakinlər basqınlardan qaçaraq xilas ola bilirdilər. Hər binada adətən bir ailə məskunlaşırdı. Birinci və ikinci mərtəbələr tövlə və anbar kimi istifadə olunur, digər üst mərtəbələrdə isə ailələr yaşayırdılar. Şəhərdəki tikililərə müxtəlif təbii





hadisələr, eləcə də Vətəndaş müharibəsi zamanı baş verən partlayışlardan ziyan dəyib. Bununla belə şəhər UNESCO-nun Mədəni İrs və Təhlükədə olan Ümumdünya İrsi siyahısına daxil edilib.

## *Əsl Çikaqo göydələni*

Dünyanın ilk modern göydələni 1885-ci ildə Çikaqo şəhərində inşa edilib. Bina Viliam Lebaron Cenni tərəfindən layihələndirilərək ənənəvi hörgü üslubunda tikilib. Binada tikinti işləri gedən zaman şəhər rəhbərliyi onun uçacağından o qədər narahat idi ki, hətta bir müddət quruculuq işləri dayandırılmışdı.

Binanın inşası tamamlananda 10 mərtəbədən ibarət idi. 1891-ci ildə isə 2 mərtəbə də əlavə edilərək ümumi hündürlüyü 55 metrə çatdırıldı. Tikili həmin dövr üçün görülməmiş hündürlüyə sahib idi. Göydələn odadavamlı dəmir-beton konstruksiyaları ilə qurulmuş, dəmir karkas skeletlə dəstəklənmişdi. "Ev Sığortası" (Home Insurance) şirkətinin binası olaraq fəaliyyət göstərirdi. Lakin bina 46 il sonra, yəni 1931-ci ildə sökülüb. Buna səbəb Marşal Fildin tikintisinin həmin ərazilərdə nəzərdə tutulması idi. Layihəyə əsasən, burada əsası qoyulacaq binalar üçün müəyyənləşdirilmiş yerlər boşaldılmalı idi. Bu səbəblə "Sığorta Binası" da daxil olmaqla, həmin ərazidə 6 bina sökülmüşdü. Beləliklə, modern əsaslarla inşa edilən bu göydələn hazırkı 100-200 mərtəbəli tikililərin başlanğıc yolu olub.

# "Uçan stul" - lift

**Mərtəbələr artdıqca yuxarılara yük daşımaq və ya qalxıb enmək çətinləşirdi. Lift adlandırılan qurğunun yaradılmasının artıq zamanı gəlmişdi. Lift tarixdə ən önəmli icadlardan biridir. İddia edilir ki, bəşəriyyətə məlum ilk lift ideyası eradan əvvəl 236-cı ildə Arximed tərəfindən ortaya qoyulub. İplərlə hərəkətə gətirilən liftdə insan gücündən istifadə edilirdi. Antik Yunanıstanın bir çox bölgəsində bu liftdən istifadə edilmişdi. Romada isə iplə qaldırılan vasitə ilə əşyalarla yanaşı, heyvanlar da daşınırdı. Hətta Kolizeydə pələnglər, leopardlar, şirlər dərin çuxurların içərisindən səhnəyə belə liftin köməyi ilə çıxarılırdı. Ancaq bu qurğu ilə maksimum 300 kiloluq yük qaldırıla bilirdi.**



Liftlərdə insanların daşınmasına 1743-cü ildən başlanılıb. İlk dəfə Versal sarayında quraşdırılmış lift 15-ci Lüdovik üçün özəl olaraq hazırlanmışdı. Qurğu balaca şkaf və içinə yerləşdirilmiş stuldan ibarət idi. Eynilə əvvəlki dövrlərdə olduğu kimi iplə idarə edilirdi. Bu liftlə tanış olan insanlar onu "uçan stul" adlandırırdılar. Növbəti mərhələdə buxarla işləyən liftlərə rast gəlinir. Bunlardan 19-cu əsrdə fabrik və mədənlərdə yüklərin daşınması üçün istifadə edilirdi.

Liftin quraşdırıldığı ilk bina Nyu Yorkda yerləşən "Ədalətli Həyat" binası (Equitable Life Building) olub. Binanın belə adlandırılması isə buranın Ədalətli Həyat Təminatı Cəmiyyətinin qərargahı olması ilə bağlıdır. Nəhayət, daha geniş yayılan elektrikli liftlər 1880-ci ildə Almaniyada Verner fon Simens tərəfindən yaradılır. Avtomatlaşdırılmış qapıların isə müəllifi amerikan ixtiraçı Aleksandr Maylsdır. Sonralar mərtəbə düymələrinin əlavə edilməsi, təcili dayandırma, telefon və s. kimi xüsusiyyətlər də ümumi mexanizmə daxil edildi.

Yeni kəşflərin sözün əsl mənasında asan və zövqlü şəkildə doğru mənzilə çıxarmasını vakumlu liftlərdə görmək mümkündür. Vakumlu lift 360 dərəcə panoram mənzərəni görmək üçün şəffaf formada dizayn edilib. Ən vacib məqam tamamilə təhlükəsiz olmasıdır. Belə ki, enerji kəsildiyi təqdirdə lift ən aşağı mərtəbəyə enir və qapılar avtomatik şəkildə açılır. Biz sözlə, bu liftlə fobiyası olanlar belə könül rahatlığı ilə mərtəbələrə qalxıb enə bilərlər.

# İlk eynəklər

**Bir çox məqsədlər üçün istifadə olunan eynəklərin tarixi 13-cü əsrdən başlayır. İlk eynəklərin İtaliyanın şimalında hazırlandığı təxmin edilir və əsasən, rahiblərin istifadəsi ilə populyarlaşdığı qeyd olunur.**



Tarixi şəkillərə nəzər yetirdikdə 14-cü əsrə aid portretlərdə təsvir olunan şəxslərin eynəkli rəsmləri ilə qarşılaşmaq mümkündür. İbtidai eynəklərin şüşələri taxta, yaxud dəri çərçivələrə bərkidilir, burunun üzərinə qoyularaq istifadə edilirdi. Uzun illər bu formada olan eynəklərin gözlük "qolları" kimi adlandırılan məbədlərini 1730-cu ildə Edvard Skarlet hazırlayıb. Tutacaqlar baş ölçüsünə uyğun tənzimlənə bildiyi üçün eynəklər buruna daha az ağırlıq verir və gözdən düşmə təhlükəsinin qarşısını alırdı. Linza şüşələrinin təkmilləşdirilməsində eynəklərə yeni metodlar tətbiq edən Benjmin Franklinin də bu sahədə bir çox uğurlu nəaliyyətləri olub.

Tapılan ən qədim eynək 15-ci əsrə aiddir. Bu gözlük Yaponiyaya hökmranlıq etmiş VIII Şoqun Yoşimasa Aşikaqaya məxsus olub. Qutusu ilə birlikdə aşkarlanan eynək əllə oyma ağ fil sümüyündən hazırlanıb. İlk eynək mağazası 1783-cü ildə Filadelfiyada açılıb. Frensis Makolisterin mağazasında müştərilər səbətlərə yığılmış gözlükləri bir-bir sınayaraq özlərinə uyğun olanı seçib alırdılar. Gün eynəklərindən istifadə isə günəşdən qorunmaq üçün nəzərdə tutulmamışdı. Çinlilər məhkəmələrdə və ya digər yerlərdə gözlərinin görünməməsi, xüsusən də gözlərindən hisslərinin bəlli olmaması üçün od tüstüləri vasitəsilə qaraltdıqları eynəkləri taxırdılar.

# "Buz ev" soyuducu imiş

**İnsanlar əldə etdikləri, hazırladıqları məhsulları saxlamaq üçün soyuq mühitə ehtiyac duyurdular. Onların bu ehtiyaclarını "buz ev" adlandırılan anbarlar ödəyirdi. Anbarlar tam və ya qismən yerin altında yerləşirdi. Yaxınlıqdakı göllərdən, çaylardan yığılan buzlar bu evə gətirilərək il boyu əriməməsi üçün samanla izolyasiya olunmuş vəziyyətdə saxlanılırdı. Yunanlar, çinlilər aylarla buz evlərdə donmuş vəziyyətdə tez xarab olan qidaları saxlaya bilirdilər. Bu ənənə də ilkin soyuducu anlayışını formalaşdırmışdı.**

Soyuducunun ilk məlum forması 1748-ci ildə Qlazqo Universitetində Uilyam Kallen tərəfindən nümayiş etdirilmişdi. Bu ixtira bir çox uğurlara yol açsa da, praktiki hazırlanaraq istifadə edilməmişdi. 1802-ci ildə amerikalı iş adamı Tomas Mur süd məhsullarını sağlam şəkildə ünvandan-ünvana çatdırmaq üçün icad etdiyi buz qutusunu təqdim etdi. Onun bu təşəbbüsü soyuducudan daha çox buzluğa bənzəsə də, patentləşdirərək onu soyuducu adlandırmışdı. Dizaynı olduqca sadə idi. Mur kiçik bir qalay qutunu taxta qutunun içərisinə yerləşdirib aralarındakı boşluğu buzla doldurmuşdu. Bu ixtira məhsulları bir neçə saat sərin saxlamaq üçün əla addım idi.

Bundan sonrakı mərhələlərdə Oliver Evans soyuducunun mexanizmini buxarla təkmilləşdirmiş, Ceykob Perkins isə buz istehsal etmək üçün üsul tətbiq etmişdi. XX əsrin əvvəllərinə qədər soyuducularda ammonyak, metilxlorid və kükürd dioksid kimi zəhərli qazlardan istifadə olunurdu. Bu da ölümcül qəza ilə nəticələnmişdi. Soyuducularda zərərli qazların sızması bir çox insanın zəhərlənərək ölməsinə səbəb olmuşdu. Baş verənlərdən sonra ilk elektrikli soyuducu ideyası meydana çıxmışdı. Adı "Domelre" olan məişət avadanlığının yaradıcısı amerikalı Frederik Viliam Volfdur. Bu soyuduculara istehsal edilən ilk illərdə yüksək qiymətli olduğundan dolayı, əsasən, varlıların evində rast gəlinirdi. Getdikcə soyuducunun qiymətinin enməsi bir neçə il ərzində onun kütləvi istehsalına, 6 milyondan çox satışına səbəb oldu.

XXI əsrdə isə smart soyuducular bazarda hakimlik edir. İlk elektrikli soyuducunun ətraf mühitə həddindən artıq zərərli olması aşkar edildikdən sonra



müasir nümunələrdə bu problem aradan qaldırılır. Hətta günəş, maqnit kimi alternativ enerjilərlə işləyən versiyalar da mövcuddur. Yeri gəlmişkən, məişət avadanlıqları üzrə məşhur şirkətlərdən biri olan LG internetli soyuducuları hazırlayan ilk markadır. "Wi-fi"-lı və kameralı avadanlıqlar isə artıq yeməklərin nə zaman xarab olacağı haqda belə məlumat verərək maraqlı funksiyalarla insanları heyrətləndirirlər.



# Dərəcənin hökmü

**Temperaturu ölçmənin əvəzsiz cihazı olan termometr tibbin əsas avadanlıqlarındandır. Adətən bu cihazın yaradıcısı olaraq Qalileo Qalileyi iddia edirlər. Qaliley qazların isti şəraitdə genişləndikləri nəzəriyyəsindən yola çıxaraq bu cihazda dərəcəni qazla müəyyən etmə üsulunu tətbiq etmişdi. Lakin o, dəqiq temperaturu ölçməkdə yararlı olmadığı üçün termometr yox, termoskop hesab edildi.**

İlk termometrin ixtiraçısı italyan həkim Santorio Santoriodur. Onun hazırladığı cihaz hava ölçən idi. Santorio Qalileyin icadına tərəzi və şkala əlavə etmişdi. Qazın maye ilə əvəzlənməsi termometrin dəqiqlik xüsusiyyətini kəskinləşdirən vasitə olmuşdu.

Müasir istilikölçənin yaradıcısı Daniel Qabriel Farengeitdir. O, 1714-cü ildə şəffaf şüşədə hazırladığı cihaza parlaq gümüşü rəngli mayeni - civəni daxil edərək böyük uğura imza atmışdı. Dərəcələri müəyyən etmək üçün suyun donma və qaynama nöqtələrini böldü. Suyun donma nöqtəsini 32 dərəcə, qaynama nöqtəsini 212 dərəcə, normal bədən istiliyini isə 98,6 dərəcə təyin etmişdi.

Farengeit ölçü cihazından əlavə günümüzdə ən çox istifadə edilən temperatur şkalası olan "Selsi" isə 1742-ci ildə Anders Selsi tərəfindən icad edilib. İsveçli alim suyun donma və qaynama nöqtələrini 100 dərəcəyə bölərək 0 dərəcəni qaynama, 100 dərəcəni isə donma dərəcəsi kimi müəyyən etmişdi. Lakin bir il sonra Selsi şkalası tərsinə çevrilərək (0 dərəcə donma, 100 dərəcə qaynama) istehsal edildi. Burada normal bədən hərarətinin 37 dərəcə olduğu da qəbul edilmişdi.

Növbəti, 3-cü şkala Kelvindir. Lord Kelvinin 1848-ci ilə aid bu istilikölçəni isti və soyuğun son hədlərini ölçür. Kelvin şkalası Selsi ilə eyni vahidlərdən istifadə edir, lakin o, hava da daxil olmaqla, hər şeyin ən son həddə donduğu temperaturda mütləq sıfırdan başlayır. Kelvində sıfır dərəcə mənfi 273 dərəcə Selsiyə bərabərdir.

Beləliklə, bütün bu kəşflər əsasında ilk tibbi termometri 1867-ci ildə fizik Tomas Olbut hazırlayıb. Bu cihazla insanın hərarətini ölçmək təxminən beş dəqiqə çəkirdi. Yüz ildən çoxdur ki, termometrlər əsasən dəyişməyib. Bu gün temperaturu ölçən müasir istilikölçənlərə elektron sensorlar da əlavə edilib. Lakin dəyişməyən həqiqət odur ki, rəqəmsal cihazlarda belə Farengeit və Selsi tərəfindən hazırlanmış eyni adlı şkalalar yer alır.

***Aydan XƏLİLOVA, "Azərbaycan"***




# Süni Günəş



Çin yeni nəsil "süni Günəş" HL-2M Tokamak nüvə birləşməli reaktorunu sınaqdan keçirib. O, 150 milyon dərəcədən çox istilik əldə etmək imkanına malikdir.

"Sinhua" agentliyinin xəbərinə görə, Çin Milli Nüvə Birliyi (CNNC) ölkənin ən böyük və ən mükəmməl nüvə birləşməli təcrübə-tədqiqat cihazı olan "HL-2M Tokamak"ın hidrogen və ağır hidrogen qazlarından istifadə edərək Günəşdə baş verən təbii reaksiyaların simulyasiyasını əldə etmək üçün hazırlandığını açıqlayıb.

Alimlərin güclü təmiz enerji mənbəyi əldə etmək potensialına sahib olduğuna ümid etdikləri əhəng cihaz hələ ki, bütün sınaqlardan uğurla çıxıb.

"People`s Daily" qəzeti Sinhua bölgəsində yerləşən "HL-2M Tokamak"ın isti plazmanı birləşdirmək üçün güclü maqnit sahəsindən istifadə etdiyini və artıq 150 milyon dərəcədən çox istiliyə çatdığını yazıb.

# Elektromobil tunelləri

**Amerikanın Nevada ştatında Elon Maska məxsus "Boring Company" şirkəti "Vegas Loop" adlı tunellər sisteminin inşasını planlaşdırır. Burada yalnız "Tesla" elektromobilləri hərəkət edə biləcəklər.**

Ümumilikdə 47 kilometrlik tunellərdə 51 stansiya olacaq. Sistemin işə düşməsi üçün şirkətin yerli nizamlayıcı orqanlardan sadəcə olaraq bəzi texniki xarakterli icazələri olmalıdır.

"Boring Company" layihəsi, faktiki olaraq, metronun eksklüziv alternatividir. Bu tunellərdə qatarların əvəzinə avtopilot sistemli avtomobillər hərəkət edəcək.

Şirkətin prezidenti Stiv Deyvisin sözlərinə görə, "Vegas Loop" layihəsi bir neçə mərhələdə reallaşdırılacaq və inşa ediləcək



stansiyalar sürətlə istifadəyə veriləcək. Belə ki, ilk 6 ayda şirkət 10 stansiyanı istifadəyə verməyi planlaşdırır. Daha sonra isə hər il 15-20 stansiya sistemə qoşulacaq.

Gözlənilir ki, "Vegas loop" sisteminin vasitələri ilə hər bir saat ərzində 57000 sərnişini daşımaq mümkün olacaq.

# Yeni bir "Affetto" dünyaya gəldi

**Yaponiyanın Osaka Universitetinin mühəndisləri toxunma tənzimləyicilərinə malik olan uşağabənzər "Affetto" robotu hazırlayıblar. Robot-uşaq ağrı və sinir sistemi ilə təchiz edilib.**



Tədqiqatçılar "Affetto"nun ilk variantının 2011-ci ildə hazırlandığını və bu günə qədər təkmilləşdirildiyini qeyd ediblər. Robota həmçinin daha mürəkkəb duyğular - gülümsəmək, burnunu qırışdırmaq, gözlərini yummaq və s. öyrədilib.

"Affetto"nun süni dəri ilə örtülmüş üzü və bədəni gerçək uşaq formasındadır. Həssas yumşaq material sərt metal səthdən fərqli olaraq robotun xarici dünya ilə tam qarşılıqlı əlaqəsini təmin edir. Daxil edilmiş tənzimləyicilərin köməyi ilə robot toxunuşu hiss edə, kobud və güclü olanlardan incə və səliqəli olanı ayıra bilir, eyni zamanda, emosional reaksiyalar verir.

Mütəxəssislər robot-uşağın bu bacarıqlarının yaşlı insanlar üçün də faydalı ola biləcəyini düşünürlər.

# Elektrikli avtomobillərin yarışı

**Dünyanın elektrikli yarış avtomobili olan "Opel Corsa-e Rally"yə 3 günlük çətin sınaqlardan sonra yarışa çıxmağa icazə verilib. İndi o, 2022-ci ildə keçiriləcək "ADAC Opel Rally Cup" turnirinə hazırlaşır.**



Alman avtomobil istehsalçısı "Opel" keçən il bir avtomobil sərgisində dünyanın ilk elektrik yarış avtomobilini təqdim etmişdi. İndi isə dörd ədəd elektrikli "Corsa-e Rally" avtomobili Alman Rally Çempionatının iki mərhələsinə daxil edilib. Bütün avtomobillərin ümumilikdə 1500 kilometrlik sınaq yürüşləri uğurla başa çatıb.

Elektrikli avtomobillərin ilk yarışı gələn ilin yazında başlayıb, payız aylarına qədər davam edəcək. Mövsümdən əvvəl bütün qeydiyyatdan keçmiş iştirakçılar üçün sınaq məqsədilə əlavə hazırlıq yarışı keçirilməsi də nəzərdə tutulur.

# Virtual müğənni, virtual klip...

**Miquela Sousa və ya Lil Miquela Trevor Mac Fedries və Sara Desou tərəfindən yaradılmış bir personajdır. Layihə 2016-cı ildə "İnstaqram" profilində fəaliyyətə başlayıb. Sosial şəbəkə hesabında Miquelanı bir model və müğənni kimi təqdim edən uydurma hekayələrdə onun 19 yaşlı Braziliya əsilli amerikalı olması bildirilib. O sonralar "Tviter", "Tumblr", "Yutub" və "TikTok"da olduqca fəallaşıb.**

2018-ci ilin aprelində Bermuda kimi tanınan ikinci oxşar personaj Miquelanın hesabını "sındıraraq" onun bütün şəkillərini silib və onları öz fotoşəkilləri ilə əvəz edib. Daha sonra hər ikisinin də Trevor McFedries və Bruddan Sara Desou tərəfindən yaradılan personajlar olduğu ortaya çıxıb. Bundan sonra hər iki onlayn personajı birlikdə şəkillər yerləşdirməyə başlayıblar və nəticədə hesab yenidən Miquela komandası tərəfindən idarə olunmağa başlayıb.

Personajın Diplo, Molli Soda, Milli Bobbi Braun, Nil Rocers, Şeyn Deyvson, Samanta Urbani və Pablo Vittar da daxil olmaqla, bir sıra məşhurlarla çəkilmiş "şəkil"ləri mövcuddur. Ondan "Refinery29", "Vogue", "Buzzfeed",



"Nylon", "The Guardian" və "Business of Fashion" da daxil olmaqla, bir sıra nəşrlər müsahibələr alıblar.

2018-ci ilin fevralında personaj Milan Moda Həftəsinin bir hissəsi olan "Prada" üçün "İnstaqram"da geyim nümayişləri keçirib. Mayda isə o, Bella Hadid ilə "Calvin Klein" reklamına çəkilib.

Hətta o, həmin il "Dazed" jurnalı redaksiyasında töhfə verən sənət redaktoru kimi işə götürülüb.

Bu yaxınlarda isə virtual müğənni "Hard feelings" adlı mahnısına 10 dəqiqəlik klip də çəkdirib. Video "Unreal Engine" proqramı vasitəsilə hazırlanıb. Kadrların hazırlanması üçün virtual kameralardan istifadə olunub.

# Ən yeni noutbuklar

**"Apple" şirkəti yeni "MacBook Pro" modelini təqdim edib. Son versiya əvvəlkilərdən tam yeni xarici görünüş və bir sıra texniki özəllikləri ilə fərqlənir. Yeni modellər mini-LED texnologiyası əsasında hazırlanmış ekranlar və güclü prosessorlar ilə təchiz olunub.**

Əslində, yeni "MacBook Pro" iki versiyada təqdim olunur. Onlardan biri 3024x1954 piksel keyfiyyətli 14.2 düym ekrana, digəri isə 3456x2234 piksel keyfiyyətli 16.2 düym ekrana malikdir. Gündəlik istifadə zamanı notbukların ekranlarının maksimal parlaqlıqları 1000, HDR formatında videoların izlənməsi zamanı isə 1600 nit təşkil edir. Bundan əlavə, notbukların ekranı 120 Hz-ə kimi təsvir yenilənməsinin adaptiv tənzimlənməsinə sahib "ProMotion" funksiyasını dəs-



təkləyir. 14.2 düym ekranlı model video izləmə rejimində 17 saat, 16.2 düym ekranı olan model isə 21 saat çalışır.

Əvvəlki "MacBook Pro"lardan fərqli olaraq bu modellərin ekranları üzərində çıxıntı var. Həmin çıxıntı ekranların yuxarı mərkəz hissələrində yerləşdirilib və xarici görünüşcə "iPhone" modellərinin ekranlarını xatırladır. Bu hissədə veb kamera yerləşdirilir. Çıxıntı hissənin olmasına baxmayaraq, bu notbuklarda "Face ID" (üz tanıma) texnologiyası mövcud deyil.

"Apple" ilk dəfə olaraq öz notbuklarında sürətli enerji yükləmə texnologiyasını reallaşdırıb. Bunun sayəsində notbuk 50 faiz enerjini cəmi 30 dəqiqə ərzində yığa bilir. Həmçinin təkmilləşdirilmiş soyutma sistemi reallaşdırılıb və şirkət təmsilçisinin sözlərinə görə, bəzi hallarda soyutma sisteminin çalışmasına, ümumiyyətlə, ehtiyac olmayacaq.

"Apple" şirkətinin əvvəlki notbuk modellərində yalnız USB girişi mövcud idi. Lakin yeni "MacBook Pro" modellərində "Apple" digər girişləri geri qaytarmağı qərara alıb. Beləliklə, yeni modeldə HDMI girişi və SD kart girişi reallaşdırılıb.

Ən əsas dəyişikliklərdən biri də budur ki, yeni notbukların klaviaturasında sensorlu panellər yerləşdirilmir. Onun yerinə şirkət ənənəvi funksional düymələr qoyub.

# "Xiaomi"nin ilk avtomobili

**Smartfonları ilə məşhur olan "Xiaomi" şirkəti yaxın bir neçə il ərzində elektromobil istehsalına başlamağı planlaşdırır. Elektromobillərin kütləvi istehsalına isə 2024-cü ilin birinci yarısında start verilməsi nəzərdə tutulur. Bu barədə məlumatı şirkətin sözçüsü Li Jun investorlarla görüş zamanı verib. O bildirib ki, "Xiaomi"nin ilk elektrikli avtomobili məhz sedan tipli olacaq.**



"Xiaomi" sentyabrda Pekində öz elektromobil şöbəsini qeydiyyatdan keçirib. Elektromobil istehsalı ilə məşğul olacaq törəmə şirkətin adı "Xiaomi EV"dir. Elektromobillərin istehsalı üçün nəzərdə tutulan zavod Pekinin yaxınlığında yerləşir.

Qeyd etmək lazımdır ki, elektromobil istehsalı ilə məşğul olacağını hələ bu ilin mart ayında rəsmi şəkildə elan edən "Xiaomi" bəyan etmişdi ki, növbəti 10 il ərzində bu sahəyə 10 milyard dollar investisiya yatıracaq.

# "Ağıllı" sarğı

**Amerikalı mühəndislər xroniki yaraların müalicəsini sürətləndirən "ağıllı" sarğı hazırlayıblar. Sarğı 3D printerdə çap edilmiş miniatür iynələrlə təchiz olunub.**



Diabetik xora, bədəndəki kəsiklər və dərin yanıq nəticəsində yaranmış fəsadların, habelə sağalmayan və ya müalicəyə cavab verməyən xroniki yaraların müalicəsi, adətən, çox mürəkkəb olur.

Konnektikut və Nebraska-Linkoln universitetlərinin, eləcə də Harvard Tibb Məktəbinin alimləri tərəfindən hazırlanan "ağıllı" sarğı tez-tez dəyişdirilmək ehtiyacını aradan qaldırır. Qurğudakı iynələr xəstəni incitmədən və iltihaba səbəb olmadan yaranın daha dərin qatlarına nüfuz edəcək. Üstəlik, "ağıllı" sarğı miniatür iynələrin köməyilə hətta dərmanın dozasını da tənzimləyəcək.

Qurğu əvvəlcə hüceyrələrdə, daha sonra diabet xəstəliyi olan siçanlarda sınaqdan keçirilib və yaraların tam sağalması müşahidə edilib.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Gəncədə "Nizami Gəncəvi ili"nə həsr olunmuş növbəti tədbir keçirilib





**Gəncə Tibb Kollecində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.**

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin deputatı Musa Quliyev, kollecin rəhbərliyi, müəllim və tələbə kollektivi iştirak etmişlər.

Tədbirin əvvəlində Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra kollecin direktoru Mehman Hüseynov dahi şairin 880 illiyi ilə əlaqədar Prezident İlham Əliyevin imzaladığı sərəncamın əhəmiyyətindən danışmışdır. Qeyd etmişdir ki, Nizami Gəncəvi dövrünün mühüm mədəniyyət mərkəzlərindən olan Gəncədə yaşayıb-yaratmışdır. O, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Onun geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Dövlət başçısının sərəncamı ilə 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilməsi dahi şairin zəngin irsinin daha dərindən öyrənilməsi, o cümlədən dünyada geniş təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir.

Sonra kollecin tələbələrinin ifasında dünya ədəbiyyatının incisi hesab edilən Nizami Gəncəvinin müdrik kəlamları səsləndirilmiş, dahi şairin həyat və yaradıcılığına həsr olunmuş film nümayiş etdirilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Dənizkənarı Milli Parkda "Zəfər" yarmarkasının açılışı olub





**Oktyabrın 29-da Dənizkənarı Milli Parkda Vətən müharibəsində qazandığımız böyük Qələbəyə həsr olunan "Zəfər" yarmarkasının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, oktyabrın 29-dan noyabrın 9-dək "Qarabağ qəhrəmanlarının izi ilə" mövzusunda keçirilən yarmarka müddətində müxtəlif şirkətlər tərəfindən qida məhsullarının, Zəfər simvolikasına aid müxtəlif suvenirlərin, kitabların və digər məhsulların satışı reallaşdırılır. Eyni zamanda Vətən müharibəsi ilə bağlı silah, geyim və texnikaların nümayişi üçün zona, hərbi oyun meydançaları quraşdırılıb. Buraya gələn vətəndaşlar üçün həmçinin hərbi vətənpərvərlik yarışları, uşaqlar üçün əyləncəli tədbirlər təşkil edilir.

Yarmarkanın hər bir günündə tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə konsert proqramlarının təşkili nəzərdə tutulur.

Tədbirin ilk günündə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Orkestrinin ifasında hərbi marşlar və vətənpərvərlik mahnıları səsləndirilib.

Qeyd edək ki, yarmarkadan əldə olunacaq vəsait Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananlara və şəhid ailələrinə dəstək məqsədi ilə "YAŞAT" Fonduna ianə ediləcək.

Yarmarka "YAŞAT" Fondu, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Dənizkənarı Bulvar İdarəsi və Azərbaycan Peyntbol Federasiyasının təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti ("Formula-1" Azərbaycan), "ABAD" publik hüquqi şəxs, Azərbaycan Dövlət Reklam Agentliyi, "Azərişıq" ASC, 156 - Evakuasiya Xidməti, "NIGROUP" MMC, Bakı Strafor Kəsim Mərkəzi, "ASAN könüllüləri" Təşkilatının dəstəyi ilə təşkil olunub.

# Heydər Əliyev Fondunun xeyirxah fəaliyyətinin xaricdəki daha bir nümunəsi





Çinin Yünnan vilayətinin ucqar Malipo qəsəbəsində çoxları Azərbaycanı yaxşı tanıyır. Bu da təsadüfi deyil. Çünki Malipodakı 2 nömrəli ibtidai məktəbdə Azərbaycanı xatırladan və tanıdan nişanə var.

Malipo Çinin cənubunda, Vyetnamla sərhəddə yerləşir. 300 minə yaxın əhalisi olan bu qəsəbə dağların və hər tərəfdən yamyaşıl meşələrin əhatəsindədir. Çin hökuməti ölkənin bu cür ucqar yaşayış məntəqələrində yoxsulluğun azaldılması proqramı çərçivəsində təhsil ocaqlarının inşası və yenidən qurulması ilə bağlı bir çox layihələr həyata keçirir. Bu cür təhsil ocaqlarından biri də ölkənin ən kasıb yaşayış məntəqələrindən olan Malipodakı 2 nömrəli ibtidai məktəbdir. Məktəb 1984-cü ildən fəaliyyət göstərir. 1700-ə yaxın şagirdin təhsil aldığı məktəbin idman meydançasının yenidən qurulmasına ciddi ehtiyac yaranmışdı.

Fəaliyyətində uşaqların təhsilli və sağlam böyüməsini hər zaman diqqətdə saxlayan Heydər Əliyev Fondu nəinki Azərbaycanda, eləcə də ölkə hüdudlarından kənarda da bir sıra humanitar layihələrin gerçəkləşməsinə dəstək verir. Malipodakı məktəbin idman meydançasının yenidən qurulması da məhz belə layihələrdəndir.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu Malipodakı 2 nömrəli məktəbin idman meydançasının yenidən qurulması layihəsinə dəstək göstərib. Layihə çərçivəsində yenidən qurulan stadion futbol, açıq və qapalı basketbol meydançalarından, qaçış zolağından ibarətdir. Rəmzi olaraq "Azərbaycan-Çin dostluq stadionu" adlandırılan bu stadionda uşaqların idmanla məşğul olması üçün zəruri şərait yaradılıb.

Məktəbin müəllimi Yü Siaoyü AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib ki, stadion çox yaxşı inşa edilib və rahatdır. Bizim şagirdlərimiz idman dərslərini bu meydanda keçməklə yanaşı, müxtəlif oyunlar da oynayırlar. Bu da öz növbəsində uşaqların sağlam böyüməsinə müsbət təsir edir. Bu həm də iki ölkə arasında dostluğun təzahürüdür.

Qeyd edək ki, bu, Heydər Əliyev Fondunun Çində həyata keçirilən humanitar layihələrə ilk dəstəyi deyil. Fond Çinin ucqar bölgələrində yoxsulluğun azaldılması proqramına dəstək məqsədilə Pekində təşkil olunan "Sevgi sərhəd tanımır" xeyriyyə yarmarkasında Azərbaycan tərəfdən fəal iştirak edir.

Fond Çində Azərbaycan mədəniyyətinin təbliğində də fəallıq göstərir. Heydər Əliyev Fondu və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında 2017-ci ilin noyabrında imzalanmış əməkdaşlıq haqqında Memoranduma uyğun olaraq, Çinin müxtəlif şəhərlərində, o cümlədən Pekində Azərbaycan mədəniyyətinin təbliğinə həsr olunmuş tədbirlər təşkil edilir, gənclər arasında qarşılıqlı mübadilə proqramları həyata keçirilir. Bundan başqa, Fond Pekin Xarici Dillər Universitetində "Nəsimi ili" çərçivəsində Azərbaycan dili və ədəbiyyatı sərgisinin, Şanxay Əməkdaşlıq Təşkilatının Pekindəki katibliyində Azərbaycan Mədəniyyəti Gününün və "Nizami Gəncəvi - bütün bəşəriyyətin şairi" tədbirinin keçirilməsinə, Çində təşkil edilən bir sıra festivallarda Azərbaycanın iştirakına dəstək verib. Bu yaxınlarda Benbu şəhərində keçirilən Tayhu Dünya Mədəniyyət Forumunun 6-cı illik konfransının əsas təşkilatçılarından biri də Heydər Əliyev Fondu olub. Benbu şəhərindəki "Qədim məskənlər" mədəniyyət parkında Heydər Əliyev Fondu tərəfindən yaradılan "Azərbaycan mədəniyyətinə pəncərə" adlı pavilyon fəaliyyətə başlayıb.


## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 02.11.2021-ci ildə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ
Date: 29.10.2021

**Assignment Title: Selection of a consulting company for provision of trainings for the staff of Agency for Agro Credit and Development (AACD).**

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services -provision of training sessions.

The project consists of four components:

(i) *Component A - Support for sanitary and phytosanitary services*, which is structured into three subcomponents: support: *(i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*
(ii) *Component B - Agri-food value chain development.* The activities will be structured into two sub-components: *(i) İnvestment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*
(iii) *Component C - Financial services to agribusiness.*
(iv) *Component D - Project Management.*

**The general objective of the assignment**

(i) Design the training program and prepare training materials for AACD staff on improvement of capacity; (ii) provision of a training program; (iii) provision of initial screening of the knowledge and final assessment; (iv) provision of certificates on attendance and success.

**Scope of services and work methodology**

The trainings will be carried out in the premises of the Agro Credit and Development Agency in Baku. The ACCD will provide training space on a free basis.

The purpose of the services is to conduct practical, applicable and theoretical trainings for AACD staff (for total about 120-150 participants, maximum 10 participants in each sessions). The Consulting company should provide the trainings in the following mentioned fields:

1. Project cycle management, Project preparation in large scaled programs, financed by the different donor organizations
2. Contract Management in large scaled projects, financed by the different donor organizations
3. Contract Management under the procurement of goods, works and consultancy services
4. Preparation of presentations
5. Human Resources
6. Business English
7. Accounting and tax course (treasury, TAX, reports)
8. Public Procurement
9. Financial accounting from ACCA, F7 financial statements and other Dipfr course)
10. Analysis and reporting with Excel
11. Data analytics with SQL and etc.

**Required input and duration of the assignment**

The training is planned to be conducted for 5-10 days for each training topic.

The assignment is considered to be implemented within the 1-2 months, November -December 2021.

**Reporting requirements:**

During the implementation of the assignment, the Consultant shall provide Inception, Interim and Final reports.

The interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

**The shortlisting criteria are:**

The assignment is expected to be performed by the Company, with the relevant experience specific to the assignment and in carrying out activities in the field of business and entrepreneurship. The interested Consultant must propose the trainers with higher education and practical experience, as well as business and entrepreneurship activities in related fields.

The details of requirements can be submitted upon request of interested Applicants.

**Qualification Requirements**

- The consulting -training provision company must have extensive experience in provision of trainings and seminars; The company must be in such business activity at least last 3 years;
- The similar type of activity with government agencies is highly appreciated;
- The experience with Projects, financed by the different financing institutions is an asset;
- Proposed Trainers, for each training seminar must have relevant education, at least 5 years of proven practical experience and at least 2 years of experience in provision of similar trainings;
- Ability to communicate in a large team
- Foreign language skills are desirable (English, Russian)
- In case of need the Purchaser may require test trainings.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants [under İBRD Loans and İDA Credits & Grants] by World Bank Borrowers January 2011 edition Revised July 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interest.

Consultant will be selected in accordance with the CQS Selection Based on Consultant's Qualification method set out in the Consultant Guidelines.

Further information can be obtained at the address below during office hours from 09:00 to 18:00.

Expressions of interest must be delivered in a written form to the address below (in person, by mail or by e-mail) by November 08, 2021.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture / Agricultural Competitiveness Improvement Project**
**Anar Azimov**
**Project Director**
**AZ1075, 1965 Ziya Bunyadov avenue, Chinar Park Business Center, Baku Azerbaijan**
**Tel: +99412 525 01 17**
**E-mail:** anarazim@gmail.com; a.azimov@akia.gov.az; nargiz.acip@gmail.com; n.isgandarova@akia.gov.az; gunelsafaraliyeva@gmail.com


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | (012) 440-46-94, (012) 441-19-91 |
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5609
Sifariş 2085
Qiyməti 40 qəpik